HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 43 (733) ■ 5 noyabr 2014 www.vergiler.az Qiymәti: 40 qәp.



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

# Gənclər dövlətin güvənc yeri, gələcək uğurların təminatçısıdır

Oktyabrın 29-da Bakıda Gənclər siyasəti üzrə birinci qlobal forumun rəsmi açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Açılış mərasimində çıxış edən dövlətimizin başçısı gənclər siyasəti ilə bağlı ölkəmizdə keçirilən ilk qlobal forumun əhəmiyyətini vurğulayıb. Azərbaycanda gənclərlə bağlı iki Dövlət Proqramının qəbul edilərək uğurla həyata keçirildiyini diqqətə çatdıran dövlətimizn başçısı yeni yaradılmış Gənclər Fondunun gənclərə özlərini cəmiyyətdə təqdim etməyə şərait yaratdığını xatırladıb. Prezident İlham Əliyev bildirib ki, gənclər mədəniyyət, təhsil və sosial sahələrə, eləcə də siyasi islahatlara aid olan layihələr üzərində işləyirlər. Yaxşı təhsilli, müxtəlif sahələrdə biliklərə malik gənclər həm ölkənin, həm də özlərinin inkişafına kömək edirlər: «Təhsil, bilik və texnologiya bütün bəşəriyyətin aparıcı qüvvəsidir. Bütövlükdə bəşəriyyət innovasiyalardan, müasir texnologiyalardan faydalanır. Buna görə də təhsil Azərbaycanda prioritetlərdən biridir. Hesab edirik ki, beynəlxalq təhsil mərkəzləri ilə sıx əməkdaşlıq edərək biz daha böyük nailiyyətlər qazana bilərik. Bu səbəbdən uzun illər ərzində hökumətimiz gənc nəsillərimiz üçün dünyanın aparıcı universitetlərində təhsil proqramlarını maliyyələşdirir. Bu il təqribən 40 milyon avroya yaxın vəsait gənclərimizin xaricdə təhsili üçün sərf edilib. Eyni zamanda, biz Azərbaycanda təhsilin səviyyəsini artırmaq üçün bu sahəyə böyük sərmayələr yatırırıq və universitetlərimizlə dünyanın aparıcı təhsil ocaqları arasında beynəlxalq əlaqələri daha da artırmağa çalışırıq. Biz bu siyasətin faydasını görürük. Bu gün Azərbaycanın gənc nəsli yeni, müasir və müstəqil ölkənin qurulmasında fəal iştirak edir».

Azərbaycan hökumətinin gənclər siyasəti ilə bağlı prioritetlərdən birinin idman olduğunu xatırladan dövlətimizin başçısı bu sahədə yaxşı nailiyyətlərimizin olduğunu bildirib: «İdmançılarımız Azərbaycanı beynəlxalq yarışlarda, dünya və Avropa çempionatlarında, eləcə də Olimpiya Oyunlarında layiqincə təmsil edirlər. Sonuncu Olimpiya Oyunları bizim üçün tarixi əhəmiyyətə malikdir. Çünki 2012-ci il London Yay Olimpiya Oyunlarında Azərbaycan əvvəlki illərlə müqayisədə ən yüksək nəticəni əldə etdi. Azərbaycan demək olar ki, 200 ölkə arasında 30-cu oldu. Gənclər arasında Olimpiya Oyunları da Azərbaycan üçün əlamətdar oldu. Yığmamız təxminən 200 ölkə arasında 10-cu oldu. Bu, onu göstərir ki, Olimpiya hərəkatının inkişafı, müasir idman qurğularının yaradılması siyasəti nəticə verir. Eyni zamanda, idman cəmiyyətimizin həyatının ayrılmaz hissəsinə çevrilib».

Azərbaycanın beynəlxalq idman tədbirlərinə ev sahibliyi etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev ölkəmizin ən mötəbər yarışların keçirilməsində fəallıq göstərdiyini vurğulayıb: «Gələn il Azərbaycanda ilk Avropa Oyunlarını keçirəcəyik. Bu, bizim üçün tarixi hadisə olacaq. Panamerika, Asiya, Afrika Oyunlarından fərqli olaraq, Avropa Oyunları əvvəllər heç zaman keçirilməyib. Bu tədbir ilk dəfə burada keçiriləcək. Bu Oyunlara 6 mindən çox atlet qatılacaq. Bu idman tədbirini Yay Olimpiya Oyunları səviyyəsində keçirməyi planlaşdırırıq. Biz 2016-cı ildə Dünya Şahmat Olimpiadasını keçirəcəyik. Şahmat komandamızın uğurlarından da hamımız fərəhlənirik. Yeri gəlmişkən deyim ki, bu komandanın bütün üzvləri gənc nəslin nümayəndələridir. Onların sırasında Avropa çempionları var. 2017-ci ildə isə İslam Həmrəyliyi Oyunları keçiriləcək. Görürsünüz ki, qısa müddət ərzində Avropa və İslam Həmrəyliyi Oyunları bir-birini əvəzləyəcək. Əslində, bu, Azərbaycanın beynəlxalq məsələlərdə oynadığı rolu aydın şəkildə nümayiş etdirir».




Gənc nəslin innovasiyalarla bağlı məsələlərdə fəal iştirakına da toxunan dövlətimizin başçısı gənclərin çox bütün sahələrdə yaradıcı və fəal olduğunu qeyd edib. «Biz iki ildən az müddət öncə «ASAN» adlanan yeni dövlət xidmətləri sistemini tətbiq etməyə başlamışıq. İngiliscə bu, «easy» yəni, «asan» deməkdir. Eyni yerdə «bir pəncərə» prinsipi ilə təqribən 30 növ xidmət göstərilir. «ASAN» sistemində çalışanların və könüllülərin tam əksəriyyəti gənc nəslin nümayəndələridir. Buna görə bu gün biznes fəaliyyətinin bir çox sahələrində bilikli, vətənpərvər, Azərbaycanın inkişafına çox sədaqətli gənc idarəetmə mütəxəssisləri var. Əminəm ki, gələn illərdə bu meyil daha da güclənəcək. Bir sözlə, bunlar bizim üçün əhəmiyyətli olan əsas sahələrdir».

Prezident İlham Əliyev bildirib ki, dövlətimiz öz ərazisinin təhlükəsizliyinin təmin olunmasında gənc nəslə güvənir və etibar edir: «Sərhədlərimizi qoruyan, hazırda erməni təcavüzkarları ilə üzbəüz səngərdə dayanan gənc azərbaycanlılar Vətənini qoruyur. Erməni təcavüzü zamanı əziyyət çəkmiş insanlarımızın əksər hissəsi gənc nəslin nümayəndələri olub. Bu, regional təhlükəsizliyə ən böyük təhdiddir. Əfsuslar olsun ki, ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan Ermənistanın silahlı təcavüzü, etnik təmizləmə siyasəti və tarixi torpaqlarımızı işğal etməsi ilə üzləşdi. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, əsrlər boyu azərbaycanlılar bu bölgədə yaşayıblar. Ermənistanın dəstəklədiyi təcavüzkar separatizm bu vəziyyəti yaratdı. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizi iyirmi ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Bir milyon insan həmin təcavüz nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb. Ermənilər tərəfindən Xocalı soyqırımı törədilib və 600-dən çox günahsız insan, - onlardan 100-dən artıq qadın, 60-dan çox uşaq, - yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilib».

Dövlət başçısı Azərbaycanın fəal diplomatiyası və beynəlxalq səviyyədə səyləri sayəsində regionda və beynəlxalq aləmdə öz mövqeyi ilə seçilən ölkə kimi tanındığını diqqətə çatdırıb. «Biz öz mövqeyimizi təkcə ifadə etmirik, onu müdafiə edirik və mövqeyimizin bu və ya digər səbəblərə, tarixi hadisələrə və regionumuz haqqında biliklərimizə əsaslandığını sübut edirik. Bu baxımdan hesab edirik ki, biz bu siyasətə görə etibarlı tərəfdaş olmuşuq. Biz müstəqilliyimizin son iyirmi ildən artıq müddətində dünyanın bu qədər ölkəsinin dəstəyini qazandıq. Bu, həmçinin böyük məsuliyyətdir. Azərbaycan yerləşdiyi regionda beynəlxalq təhlükəsizlik və sabitlik baxımından mühüm rol oynayır. Azərbaycan sanki sabitlik, inkişaf adasıdır və proqnozlaşdırılan ölkədir. Biz regionda sabitləşdirici qüvvə, amil kimi öz rolumuzu oynayırıq. Çünki biz regional əməkdaşlıq, iqtisadi təşəbbüslər, enerji və daşımalar sahəsinə aid olan addımlarla böyük nailiyyətlər əldə edə bilərik».

Prezident İlham Əliyev bildirib ki, güclü potensiala malik, uğurumuzun aparıcı qüvvəsi olan gəncləri ilə Azərbaycan gələcəkdə daha böyük nailiyyətlərə imza atacaq.

## «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1038 IVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli 1038 IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 31 oktyabr 2014-cü il.**

# Azərbaycan-Fransa münasibətləri uğurla inkişaf edir

Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 3-də Fransa Milli Assambleyasının üzvü, Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Manselin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, yüksək səviyyədə keçirilən görüşlərin, o cümlədən Fransaya son səfəri zamanı Prezident Fransua Ollandla keçirdiyi görüşün əlaqələrimizin daha da möhkəmlənməsi baxımından önəmini qeyd edib. Fransada təsis olunmuş Azərbaycanın Dostları Assosiasiyasının fəaliyyətinin ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib.



Rəhbərlik etdiyi qurumda Fransa cəmiyyətinin müxtəlif təbəqələrinin nüfuzlu nümayəndələrinin birləşdiyini diqqətə çatdıran Jan-Fransua Mansel Azərbaycan ilə Fransanın bir-birini daha yaxından tanıması üçün səylərini əsirgəməyəcəklərini bildirib.

Ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli siyasi və iqtisadi əlaqələrin bu işə öz müsbət təsirini göstərəcəyinə ümidvar olduğunu qeyd edən Jan-Fransua Mansel onlara göstərilən diqqət və yüksək qonaqpərvərliyə görə minnətdarlığını qeyd edub.

Görüşdə Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlər, parlamentlərarası əlaqələr, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Dünya Bankı Azərbaycan iqtisadiyyatına dəstək verir

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Dünya Bankının Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Lora Takın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi qeyd olunub. Azərbaycanda iqtisadi fəaliyyətin daha da optimallaşdırılması, xidmət sahəsində həyata keçirilən genişmiqyaslı islahatların, o cümlədən ölkəmizdə yaradılan «ASAN xidmət» tərəfindən görülən işlərin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Dünya Bankı Azərbaycanda həyata keçirilən iqtisadi layihələrə öz dəstəyini verməkdə maraqlıdır.

Söhbət zamanı Azərbaycanın müvafiq qurumları ilə Dünya Bankı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

2 «Doing Business 2015» reytinq hesabatında Azərbaycan 8 pillə irəliləyib
3 Vergi güzəştləri aqrar sahənin inkişafına və qeyri-neft ixracının genişlənməsinə əlverişli şərait yaradır
4 Özəl vergi məsləhəti
5 Əməyin təhlükəsizliyi diqqət mərkəzindədir

# Vergilər naziri Fazil Məmmədov Salyanda vətəndaşları qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.*



Növbəti belə qəbul oktyabr ayının 30-da vergilər naziri Fazil Məmmədov tərəfindən Salyan şəhərindəki Heydər Əliyev Mərkəzində Salyan, Neftçala və Saatlı rayonlarından olan vətəndaşlar üçün keçirilmişdir. Vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı 40-dan çox vətəndaşın müraciətinə baxılmşdır.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, müraciətlərin bir qismi nəzarətə götürülmüş, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildirmişlər.

# Əmək münasibətlərinə vergi nəzarəti tədbirləri davam etdirilir

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişi həmin elektron informasiya sistemində qeydiyyata alındıqdan və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərildikdən sonra hüquqi qüvvəyə minir. Muzdlu işə cəlb edilmiş şəxslərin hüquqlarının pozulmasının qarşısının alınması məqsədilə Vergilər Nazirliyi tərəfindən aparılan təsirli tədbirlərə, eləcə də işəgötürənlər arasında təbliğatın və maarifləndirilmə işlərinin gücləndirilməsinə baxmayaraq, bəzi işəgötürənlər hələ də işçilərlə əmək müqavilələri bağlamadan və iş yerlərini rəsmiləşdirmədən vətəndaşları müxtəlif işlərin görülməsinə cəlb edərək qanunvericiliyin tələblərini kobud surətdə pozurlar.

Oktyabr ayının 31-də Vergilər Nazirliyinin əməkdaşları tərəfindən keçirilən növbəti əməliyyat-nəzarət tədbirləri nəticəsində aşkar olmuşdur ki, Sumqayıt şəhərində yerləşən, Anar Nazim oğlu Aslanova məxsus «SUM Market» pərakəndə ticarət obyektində və həmin obyektin tərkibində fəaliyyət göstərən şirniyyat sexində faktiki olaraq 24 nəfər işləyir və onlardan 16 nəfəri Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi hüquqi qüvvəyə minmədən müxtəlif işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilir. Vergi ödəyicisindən və həmin işçilərdən alınmış izahatlardan aydın olmuşdur ki, onlar mağazada xeyli müddətdir işləyirlər, buna baxmayaraq, onların heç biri ilə əmək müqaviləsi bağlanmamış və müvafiq rəsmiləşdirmə işləri aparılmamışdır. Faktla bağlı materiallar Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə cinayət işinin başlanması məqsədilə Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilmişdir.

Vergilər Nazirliyi bir daha xəbərdarlıq edir ki, işçilərin əmək müqaviləsi hüquqi qüvvəyə minmədən işlərin görülməsinə cəlb edilməsi hallarının qarşısı gələcəkdə də qətiyyətlə alınacaq, intizamsız vergi ödəyicilərinə qarşı qanunda nəzərdə tutulan ən sərt tədbirlər görüləcəkdir.

# Vergidən yayınanlar ciddi cəzalandırılır

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə daxil olmuş məlumat əsasında aparılmış əməliyyat tədbirləri nəticəsində müəyyən edilmişdir ki, Bərdə rayonunun Zümürxaç kənd sakini, 11 saylı Ərazi Vergilər Departamentində qeydiyyatda olan Fərrux Teymur oğlu Bayramov vergilərin hesablanması və dövlət büdcəsinə ödənilməsinə məsuliyyət daşıyan cavabdeh şəxs kimi sahibkarlıq fəaliyyəti göstərdiyi dövrdə Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərini pozaraq 185 min 901 manat məbləğində fiziki şəxslərin gəlir vergisini dövlət büdcəsinə ödəməkdən yayınıb. Hüquqi baxımdan külli miqdar təşkil edən bu borc onun respublikanın müxtəlif rayonlarından 1,6 milyon manat məbləğində kənd təsərrüfatı məhsullarının alınaraq Rusiya Federasiyasına ixrac edilməsindən əldə etdiyi gəlirdən yaranıb.

Bundan başqa, F.Bayramov 11 saylı Ərazi Vergilər Departamentində vergi ödəyicisi kimi qeydiyyatda olan fərdi sahibkarlar Asif Vahid oğlu Xəlilovun, Arzu Neymət oğlu Nuruyevin, Cəmaləddin İbrahim oğlu Orucovun və Orxan Cəmaləddin oğlu Orucovun vergi ödəyicisinin eyniləşdirmə nömrəsindən istifadə etməklə sahibkarlıq fəaliyyəti həyata keçirmiş, onların adından Azərbaycan Respublikası ərazisində müxtəlif vaxtlarda kənd təsərrüfatı məhsullarının alınmasını və həmin məhsulların Rusiya Federasiyasına ixrac olunmasını təşkil edib. Bununla o, müvafiq vergilərin ödənilməsinin təmin edilməsinə cavabdeh şəxs kimi ümumilikdə 733 min 769 manat məbləğində fiziki şəxslərin gəlir vergisini dövlət büdcəsinə ödəməkdən yayınıb.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə nəzərdə tutulmuş cinayət əməlini törətdiyi müəyyənləşdirilərək F.Bayramov 2014-cü il oktyabrın 22-də şübhəli şəxs qismində tutularaq Yasamal Rayon Polis İdarəsinin müvəqqəti saxlanma məntəqəsinə təhvil verilib. Törətdiyi cinayətin xarakteri və digər hüquqi şərtlər nəzərə alınaraq onun barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda dövlət büdcəsinə ödənilməkdən yayındırılmış vergilərin ödətdirilməsi, istintaqın yekunlaşdırılıb işin məhkəməyə göndərilməsi üçün zəruri tədbirlər görülür.

# «Doing Business 2015» reytinq hesabatında Azərbaycan 8 pillə irəliləyib

Son illərdə sahibkarlığın inkişaf etdirilməsi sahəsində dövlətimizin həyata keçirdiyi islahatlar nəticəsində ölkəmizdə biznes mühitinin təkmilləşdirilməsi, biznesin təşkil edilməsi üçün sərf olunan xərclərin azaldılması və vaxt tutumlu müxtəlif qeydiyyat prosedurlarının sadələşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilib. Bu, beynəlxalq hesabatlarda da öz təsdiqini tapır. Beynəlxalq aləmdə biznes mühitinin rahatlığı göstəricilərini özündə əks etdirən hesabatlardan olan «Doing Business» reytinq hesabatı ölkəmizdə əldə edilmiş nailiyyətləri bir daha təsdiq edib. 2014-cü il oktyabrın 29-da Beynəlxalq Maliyyə Korporasiyasının Dünya Bankı Qrupu tərəfindən açıqlanmış «Doing Business 2015» reytinq hesabatında Azərbaycan 189 ölkə arasında 8 pillə irəliləyərək 80-ci yerdə qərarlaşıb.

Son bir il ərzində biznes mühitinin təkmilləşdirilməsi sahəsində öz qanunvericiliyini daha da yaxşılaşdıran ölkəmiz «Doing Business 2015» hesabatında ən çox islahat aparan 10 ölkə sırasına daxil olaraq bu sıralamada 8-ci yeri tutub və bir çox qabaqcıl dövlətləri qabaqlayıb. Hesabatda Azərbaycanın 3 indikator («Əmlakın qeydiyyatı», «Biznesə başlama» və «Vergilərin ödənişi») üzrə həyata keçirdiyi islahatlar nəzərə alınıb.

Bu islahatlar «Biznesə başlama»da qeydiyyatın elektron aparılmasının tətbiqi, «Əmlakın qeydiyyatı»nda notariuslar və əmlakın reyestri informasiya bazasının onlayn rejimdə inteqrasiyası, «Vergilərin ödənişi»ndə hesabat və ödənişlərin elektron qaydada aparılmasının geniş tətbiqi ilə müşahidə olunur.

Ümumiyyətlə, Azərbaycanda 2007-ci ildən ardıcıl olaraq bu günə kimi 9 indikator («Biznesə başlama», «Tikinti icazələrinin alınması», «Əmlakın qeydiyyatı», «Kreditlərin alınması», «İnvestorların maraqlarının qorunması», «Vergilərin ödənişi», «Müqavilələrin icrası», «Xarici ticarətin aparılması» və «İşçilərin işə qəbulu») üzrə reallaşdırılan 19 islahat «Doing Business» hesabatlarında nəzərə alınıb.

Ötənilki hesabatla müqayisədə bu il bir çox göstəricilərdə ölkəmizin mövqeyi yaxşılaşıb. Reytinqdə Azərbaycan «Vergilərin ödənişi» göstəricisi üzrə 44 pillə irəliləyərək 33-cü, «Tikinti icazələrinin alınması» üzrə 30 pillə irəliləyərək 150-ci, «Elektrik təchizatı şəbəkələrinə qoşulma» üzrə 22 pillə irəliləyərək 159-cu, «Əmlakın qeydiyyatı» üzrə 3 pillə irəliləyərək 10-cu, «Xarici ticarətin aparılması» üzrə 2 pillə irəliləyərək 166-cı yerdə qərarlaşıb.

«Doing Business» hesabatının əsas məzmunu olan «Etalon qanunvericiliyə yaxınlıq» (DTF) indeksi üzrə ölkəmizin göstəricisi cari hesabatda da keçmiş hesabata nisbətən 61.53-dən 64.08-ə yüksəlmişdir ki, bu da Azərbaycanda biznes mühitinin daim təkmilləşdirilməsi istiqamətində reallaşdırılmış işlərin müsbət nəticəsinin təsdiqidir.

Hesabatın iki indikatoru («Biznesə başlama» və «Vergilərin ödənişi») Vergilər Nazirliyinin fəaliyyətinə aid olan sahələrdəki vəziyyəti əks etdirir.




Sahibkarların qeydiyyatı sahəsində son illərdə ardıcıl olaraq həyata keçirilən islahatlar («Bir pəncərə», elektron qeydiyyat) nəticəsində bu gün ölkədə biznesin ən müasir qeydiyyat sistemi mövcuddur. Hesabata əsasən, kommersiya hüquqi şəxsin qeydiyyatı üçün yerinə yetirilməli olan prosedurların sayı 3, sərf edilən müddət 5 gün, sərf edilən məbləğ isə 164 manatdır. Əvvəlki hesabatla müqayisədə «biznesə başlama»nın vaxt tutumu 7-dən 5-ə enərək 2 gün azalmışdır. «Biznesə başlama» indikatorunda Azərbaycan üçün müəyyən edilmiş «Etalon qanunvericiliyə yaxınlıq» (DTF) indeksi keçmiş hesabata nisbətən 95,30%-dən 95,54%-dək yüksəlmişdir ki, bu da ölkəmizdə qeydiyyat sisteminin kifayət qədər yüksək standartlara uyğun olduğunu göstərir. Qeydiyyat sisteminin təkmilləşməsi sahəsində hazırda aparılan işlər növbəti hesabatlarda qeydiyyat prosedurlarının vaxt və xərc tutumu maddələrinin daha da azalacağını şərtləndirir.

«Doing Business» hesabatının bilavasitə vergi orqanlarının işinə aid olan növbəti indikatoru isə «Vergilərin ödənişi»dir. Dövlət büdcəsinə vergilərin ödənilməsi və bəyannamələrin təqdim edilməsi sahəsində vergi sistemində tətbiq edilən yeniliklər əvvəlki illərin reytinq cədvəllərində öz əksini tapmış və bu indikator üzrə ölkəmizin xeyli irəliləməsinə səbəb olmuşdu. Builki hesabatda isə ölkədə sosial müdafiə ayırmaları üzrə hesabatların və ödənişlərin elektron formada aparılması sahəsində əldə edilmiş nailiyyətlər nəzərə alınıb. Ötən dövr ərzində ölkəmizdə məcburi dövlət sosial sığorta haqlarının ödənişi və hesabat sisteminin avtomatlaşdırılması tam başa çatdırılıb ki, bu da beynəlxalq təşkilatın reytinq göstəricisində öz əksini tapıb. «Doing Business 2015» hesabatında il ərzində sosial müdafiə ayırmaları üzrə hesabatların hazırlanıb ödənilməsinə sərf olunan vaxt 78 saat qiymətləndirilməklə 19 saat azaldılıb, bu sahədə ödənişlərin sayı isə 11 vahid azaldılaraq 1 qəbul edilib. Nəticədə «Vergilərin ödənişi» indikatoru üzrə, ümümilikdə, sosial müdafiə ayırmaları, mənfəət vergisi və əlavə dəyər vergisi üzrə 195 saat, 7 ödəniş və mənfəətə nisbətdə ümümi vergi dərəcəsi 39,8% qeyd olunub.

«Doing Business 2015» hesabatında Azərbaycan «Vergilərin ödənişi» indikatoru üzrə əvvəlki hesabatla müqayisədə 44 pillə irəliləyərək 33-cü yerə yüksəlib. Reytinqin «Vergilərin ödənişi» indikatorunda Azərbaycan MDB dövlətləri arasında Qazaxıstandan sonra ikincidir. «Vergilərin ödənişi» indikatorunda Azərbaycan üçün müəyyən edilmiş «Etalon qanunvericiliyə yaxınlıq» (DTF) indeksi keçmiş hesabata nisbətən 76,69%-dən 83,77%-dək yüksəlib.

Son vaxtlar ölkəmizdə «ASAN xidmət» mərkəzlərinin yaradılması və biznes mühitinə göstərilən xidmətlərin bu mərkəzlər vasitəsilə aparılması sahəsində dövlətimizin yürütdüyü iqtisadi siyasət «Doing Business» hesabatının bütün indikatorları üzrə stabil yüksəlişə nail olmaq üçün əla zəmin yaradır.

**İlkin HƏSƏNOV**
*İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatı və uçotun təşkili idarəsinin rəisi*


**Vergi ödəyicilərinin nəzərinə!**

**Hörmətli vergi ödəyiciləri!**

**Əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sistemində (www.e-gov.az, www.mlspp.gov.az) qeydiyyatdan keçirildikdən sonra hüquqi qüvvəyə minir. Bunun üçün işəgötürənlərin və ya onların nümayəndələrinin gücləndirilmiş elektron imzası, o cümlədən "ASAN İmza"sı olmalıdır.**

Vergi ödəyiciləri "ASAN İmza" sertifikatını əldə etmək üçün "ASAN İmza" sim kartını Azərbaycanın hər üç mobil operatorundan 18 manat ödəməklə əldə edə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə yaxınlaşmaqla müvafiq sertifikatı ala bilərlər. Bundan sonra əmək müqavilələri elektron sistemə daxil edilir.

Vergilər Nazirliyi bildirir ki, işəgötürənlər tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Vergi Məcəlləsinin 58.10-cu, İnzibati Xətalar Məcəlləsinin 53.1-ci və Cinayət Məcəlləsinin 162-1-ci maddələri ilə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Nəzərinizə çatdırırıq ki, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə, ödənişsiz qaydada əmək müqavilələrinizi elektron sistemə daxil edə bilərsiniz.

Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ


# Vergi ödəyiciləri üçün daha bir xidmət mərkəzi



*Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Nazim İsmayılov prospekti, ev 276 ünvanında Bakı Şəhər Vergilər Departamentinin yeni Vergi ödəyicilərinə xidmət mərkəzi istifadəyə verilib.*

Xidmət mərkəzində fiziki və hüquqi şəxslərin elektron qeydiyyatının aparılması, nəzarət-kassa aparatlarının, təsərrüfat subyektinin qeydiyyata alınması və qeydiyyatdan çıxarılması, fəaliyyətin bərpası, dayandırılması, xitam verilməsi, uçot məlumatlarında dəyişiklik, bəyannamələrin, hesabat və arayışların göndərilməsi, bankda hesabın açılması, e-vergi hesab-fakturalarının göndərilməsi, məktub və ərizələrin göndərilməsi, «ASAN imza»nın, habelə istifadəçi kodu, şifrə və parolun əldə edilməsi və dəyişdirilməsi və s. məsələlər üzrə xidmətlər göstərilir.

Mərkəzdə vətəndaşlara vergi qanunvericiliyinin tətbiqi barədə izahatlar verilir, müraciət edənlərə büdcəyə olan borclarının öyrənilməsi və öz şəxsi vərəqələrinə nəzər salmaq imkanı yaradılır, vergilərə aid ərizə və hesabat formalarının, buklet və başqa nəşrlərin verilməsi təmin edilir.

Xidmət mərkəzi iş günləri saat 09:00-dan saat 18:00-dək fasiləsiz fəaliyyət göstərəcək.



# Vergi güzəştləri aqrar sahənin inkişafına və qeyri-neft ixracının genişlənməsinə əlverişli şərait yaradır



## Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimovun «Vergilər» qəzetinə müsahibəsi

***- Eldar müəllim, qarşıdakı illərdə ölkəmizdə kənd təsərrüfatının inkişafının perspektivlərini necə səciyyələndirmək olar?***

- Aqrar sahənin inkişafı ölkəmizdə həyata keçirilən iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. İndiyədək dövlət tərəfindən istehsalın həcminin artırılması və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı ilə bağlı bir sıra mühüm layihələr və proqramlar hazırlanaraq həyata keçirilib. «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nda, 2014-2018-ci illərə dair «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda aqrar sahəyə xüsusi önəm verilib. Kənd təsərrüfatı məhsullarının istehsalı və rəqabət qabiliyyətliliyinin artırılması, emal müəssisələrində mütərəqqi texnologiyaların tətbiqinin dəstəklənməsi, iri fermer təsərrüfatlarının yaradılması, aqrotexservis xidmətləri şəbəkəsinin genişləndirilməsi, kənd təsərrüfatının texnika, mineral gübrələrə və pestisidlərə olan tələbatının təmin edilməsinin yaxşılaşdırılması, şoranlaşmış torpaqların yenidən dövriyyəyə qaytarılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi və digər tədbirlər nəzərdə tutulub. Hazırda həmin tədbirlərin icrası istiqamətində işlər davam etdirilir.

2015-ci ildə aqrar sahəyə dövlət dəstəyi tətbirlərinin daha da gücləndirilməsi nəzərdə tutulur. «2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın həyata keçirilməsi üçün büdcədən 186,2 mln. manat vəsait ayrılacaq. Bu, 2014-cü illə müqayisədə 55,2 milyon manat, yaxud 42,1% çoxdur. Gələn ilin büdcə layihəsində kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə olunan mineral gübrələrə görə fermerlərə verilən subsidiyanın məbləğinin 50 manatdan 80 manata qaldırılması və maliyyələşdirilməsi də öz əksini tapıb.

Ümumiyyətlə, hökumət aqrar sahəyə qeyri-neft sektorunun ən prioritet sahələrindən biri kimi yanaşır. Yaxın 7-8 ildə kənd təsərrüfatı məhsullarının istehsalını ən azı iki dəfə artırmaq nəzərdə tutulub. Bu məqsədlə stimullaşdırıcı tədbirlərin davam etdirilməsi zəruri hesab olunur. Kənd təsərrüfatı məhsulları istehsalçılarının 2014-cü il yanvarın 1-dən daha 5 il müddətinə vergilərdən azad olunması məhz bu siyasətin tərkib hissəsidir. Eyni zamanda, qeyri-neft məhsullarının ixracının strukturunda kənd təsərrüfatının payının yüksəldilməsi müəyyən edilib. Buna görə də nəzərdə tutulan hədəfləri reallaşdırmaq üçün hər bir istiqamət üzrə konkret tədbirlər hazırlanıb həyata keçiriləcək. Hesab edirəm ki, əlverişli iqtisadi tədbirlər, o cümlədən səmərəli vergi siyasəti qarşıdakı illərdə istehsalın artmasına imkan verəcək.

***- Ərzaq təhlükəsizliyi ilə bağlı yeni proqram hazırlanacaqmı?***

- 2008-ci ildə qəbul olunmuş proqramın icrası gələn ilin sonunda başa çatır. Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunması ölkənin milli iqtisadi təhlükəsizliyinin əsas vacib komponentidir və bu istiqamətdə tədbirlər davam etdiriləcək. Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair yeni Dövlət Proqramının qəbul olunması da istisna deyil. Ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, həmçinin digər iqtisadi proqramlarda başlıca prioritet kimi müəyyən edilib. Bu tədbirlər çərçivəsində milli istehsalın, xüsusilə də taxılçılığın inkişafı üçün əkinə yararlı torpaqların həcminin artırılması və taxılçılıqda məhsuldarlığın 32-35 sentnerə, istehsal həcminin isə 3 milyon tona çatdırılması nəzərdə tutulur. Bu məqsədlə buğda istehsalçılarına kompensasiyaların ödənilməsi, gübrə xərclərinin 70%-nin dövlət hesabına ödənilməsi, kənd təsərrüfatının torpaq vergiləri istisna olmaqla, bütün digər vergilərdən azad edilməsi, elit və yüksək reproduksiyalı toxum istehsalının dövlət tərəfindən subsidiyalaşdırılması üçün dövlət büdcəsindən əlavə vəsait ayrılması planlaşdırılan tədbirlərdəndir.

***- Aqrar sahənin inkişafında həyata keçirilən vergi siyasəti öz real bəhrəsini verirmi?***

- Aqrar sahənin inkişafında vergi siyasəti mühüm rol oynayır və vergi güzəştləri də məhz kənd təsərrüfatının inkişafına əlavə stimul vermək üçündür. Ötən 13 ildə güzəştlər nəticəsində büdcəyə köçürülməsi nəzərdə tutulan 1 milyard 400 milyon manat vəsait kənd təsərrüfatı istehsalçılarında qalıb, kənd təsərrüfatının genişləndirilməsinə yönəldilib. Nəticədə kənd təsərrüfatı məhsullarının həcmi 4,4 dəfə artıb, məhsul istehsalı 1,3 milyard manatdan 5 milyard manata çatıb. Yəni güzəştlər illik 280 milyon manatdan artıq həcmdə məhsul istehsalının artmasında mühüm rol oynayıb.

Prezident İlham Əliyevin imzaladığı «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edilməsi barədə» sərəncama əsasən, istehsalçılar 2014-cü il yanvarın 1-dən 5 il müddətinə torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilib. Bu qərar artıq cari ilin ötən dövrü ərzində kənd təsərrüfatının bir çox bölmələrində istehsalın artmasında mühüm rol oynayıb. Bu siyasətin davam etdirilməsi nəticəsində qarşıdakı dövrdə kənd təsərrüfatı məhsullarının maya dəyəri xərclərinin və qiymətlərin aşağı düşməsi, ölkə üzrə məhsul istehsalının əhəmiyyətli dərəcədə artımı mümkün olacaq. Güzəştlər 2019-cu ilə qədər milyardlarla manat vəsaitin kənd təsərrüfatı məhsulları istehsalçılarında qalmasına və aqrar sahənin inkişafına şərait yaradacaq. Ümumiyyətlə, bu tədbirlər kənd təsərrüfatında və yeyinti sənayesində müasir avadanlıq və yeni texnologiyaların tətbiqinə, texnika ilə təchizat səviyyəsinin daha da yaxşılaşdırılmasına, əhalinin keyfiyyətli ərzaq məhsulları ilə daha etibarlı təminatına faydalı stimul olacaq.

***- Aqrar sahədə kooperasiyaların fəaliyyətə başlaması bu sahədə hansı dəyişikliklərə səbəb ola bilər?***

- «Kənd təsərrüfatı kooperasiyası haqqında» qanun layihəsi bir neçə il öncə Milli Məclisdə birinci oxunuşda qəbul olundu. Amma sonradan araşdırmalar, təhlillər layihənin daha da təkmilləşdirilməsi zərurətini ortaya çıxardı. Layihə hazırda Prezident Administrasiyasının müvafiq şöbəsində işlənilir. Yaxın günlərdə sənəd parlamentə təqdim olunacaq və müzakirəyə çıxarılacaq. Kooperasiya, əslində, istehsalın artmasına və rəqabət qabiliyyətli məhsul istehsalına hesablanmış formadır. Yeni təşkil olunan iqtisadi-hüquqi qurum kənd yerlərində mülkiyyətçilərin birləşməsini nəzərdə tutur. Bu gün respublikada 835 min ailə torpaq payı alıb, amma əhalinin sıxlığı böyük olduğundan torpaq payı alanların əkin sahələrinin həcmi azdır. Məsələn, elə rayon var ki, kəndliyə 15 sot torpaq payı düşüb və 4 nəfərlik ailə üçün bu torpağı əkib-becərmək üçün texnika və digər vəsaitləri almaq çətindir. Onun müasir innovasiyalardan istifadə etmədən rəqabətədavamlı məhsul istehsal etməsi mümkün deyil. Ona görə də torpaq sahiblərinin birləşməsi, istehsal kooperativləri yaratmaları vacibdir.

Qanun layihəsində istehsalla yanaşı, istehlak kooperativlərinin yaradılması da nəzərdə tutur. Yəni kooperativ istehsal etdiyi məhsulu emal etmək üçün zavod tikməli, onun xammal təminatı üçün emal müəssisəsi yaratmalı, müasir satış məntəqələri qurmalıdır. Bütün bunlar kooperasiyalarda öz əksini tapacaq.

***- «Yaşıl market»lərin yaradılması istiqamətində hansı işlər görülür?***

- Yeni aqrar layihələrdən olan logistika mərkəzləri və «yaşıl market»lərin yaradılması istiqamətində işlər davam etdirilir. Gələn il bu istiqamətdə mühüm işlər görüləcək. Məqsəd satış bazarının vəziyyətini tənzimləmək, istehsalçının məhsulunun birbaşa istehlakçıya çatdırılmasına nail olmaqdır. Bu gün ölkədə satış bazarının vəziyyəti normal deyil. İstehsalçı min bir əziyyətlə satdığı məhsuldan 5% qazanc götürür. Bazarlarda kəndlinin məhsulları əldən-ələ ötürülür və qiymətlər də bahalaşır. «Yaşıl market» və logistika mərkəzləri ilə bağlı Avropanın təcrübəsi öyrənilir. İspaniyada bu təcrübə geniş yayılıb. Əhalisi 300 min nəfərdən çox olan şəhərlərdə logistika mərkəzləri fəaliyyət göstərir. Fermerlər öz məhsullarını münasib qiymətə bura təhvil verirlər. Mərkəzdə məhsul sortlaşdırılır, markalaşdırılır, yuyulub təmizlənir və qablaşdırılır. Hətta məhsul keyfiyyətinə görə bir neçə növə bölünür, mərkəzdə fitosanitar, baytarlıq və gigiyenik nəzarətdən keçən kənd təsərrüfatı məhsulları pərakəndə satış nöqtələrinə paylanır. Burada logistika mərkəzi gördüyü iş və xidmətlərin müqabilində məhsulun üzərinə müəyyən faiz əlavə edir.

***- Kəndli istehsal etdiyi məhsulu bazara çıxarmaqda çətinlik çəkir. Bu sahədə hansı addımların atılması gözlənilir?***

- Bu məsələnin həlli «Kənd təsərrüfatı kooperasiyası haqqında» və «Antikartel fəaliyyəti haqqında» qanun layihələrində nəzərdə tutulub. Qiymətlərin tənzimlənməsi və inhisarçılığın qarşısının alınması məqsədilə «İnformasiya məsləhət xidməti haqqında» qanun layihəsində bir sıra müddəalar öz əksini tapacaq. Hər üç layihəyə əsasən, bazarda rəqabət mühitini təmin etmək üçün yeni mexanizmlər tətbiq olunacaq, indiki kimi məhsulu istehsalçıdan alaraq ikiqat bahasına satan qüvvələr aradan çıxacaq. Yəni istehsala aid olmayan şəxslərin burada iştirakı mümkün olmayacaq. Layihədə sahibkarların elektron xidmətlərdən və elektron ticarətdən istifadəsinin artırılması da əksini tapıb. Məsələn, fermer internet vasiləsilə istehsal etdiyi məhsullar haqqda məlumat verəcək, eyni zamanda özünə bazar axtaracaq.

***- Kənd təsərrüfatında yaradılması nəzərdə tutulan aqropark layihəsinin əsas məqsədi nədir?***

- Aqroparklar kənd təsərrüfatının maşın-texnika və minerallarla təminatının yaxşılaşdırılması məqsədilə ayrıca yaradılmış aqrar zona hesab edilir. Bölgələrdə yaradılması nəzərdə tutulan aqrar parklar kənd mülkiyyətçilərinin və fermerlərin problemlərinin həll olunması, onların təsərrüfatlarının maddi-texniki bazasının möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Burada kənd təsərrüfatına aid maşın və texnikalar, onların ehtiyat hissələri hazırlanacaq, gübrə və kimyəvi-mineral maddələr istehsal olunacaq. Layihəyə əsasən, xarici investorları cəlb etməklə respublikada kənd təsərrüfatı təyinatlı texnikanın istehsalının təşkili də planlaşdırılır. Bu məqsədlə Azərbaycan İnvestisiya Şirkəti xarici sərmayəçilərlə birgə yeni layihələr hazırlayıb həyata keçirəcək. Bununla da xarici ölkələrdən Azərbaycana gətirilən maşınqayırma məhsullarının idxalı aradan qalxacaq.

***- Fermerlər bəzi hallarda dövlətin onlara verdiyi subsidiyaların, mineral gübrələrin çatmamasından narazılıq edirlər. Belə halların qarşısının alınması üçün nə kimi tədbirlərin görülməsi planlaşdırılır?***

- Azərbaycan MDB məkanında subsidiya verən yeganə ölkədir, subsidiyalar 2007-ci ildən verilir. Amma kənd təsərrüfatı mülkiyyətçilərinin bir hissəsi vəsaitin ünvanına çatmamasından narazıdır. Ötən dövrdə bu sahədə, xüsusilə də kənd təsərrüfatı mülkiyyətçilərinə subsidiyaların, texnika və mineral gübrələrin verilməsində bir sıra xoşagəlməz, neqativ halların baş verməsi müasir İKT əsasında nəzarət sisteminin yaradılmasını, elektron idarəetmənin tətbiqini zəruru edir. Bu məsələlər dövlət başçısını da narahat etdiyindən bununla bağlı müvafiq qurumlara tapşırıqlar verilib. İlk növbədə, subsidiyaların ünvanına çatdırılması üçün onun verilməsi qaydaları sadələşdiriləcək. Yaxın 3 il ərzində aqrar sektorun dövlət tərəfindən dəstəklənməsində şəffaflığı və hesabatlılığı təmin etmək üçün «Elektron kənd təsərrüfatı informasiya sistemi»nin yaradılması nəzərdə tutulub.

***- Aqrar sektorda sığorta sisteminin tətbiqi sahəsində hansı yeniliklər gözlənilir?***

- Kənd təsərrüfatında risk faktoru böyükdür. İstehsalçılar sığorta sisteminin işləməməsinə görə əkinə maraq göstərmirlər. Hazırda qüvvədə olan «Kənd təsərrüfatının sığortası haqqında» Qanuna əsasən, 9 növ məhsula görə sığortanın verilməsi nəzərdə tutlub. Mülkiyyətçilərə dəyən zərərin 50%-i dövlət vəsaiti hesabına ödənilir. Amma sığorta mexanzimi mürəkkəb olduğundan sığortaya görə verilən vəsaitin ünvanına çatdırılması şübhə doğurur. Bəzən sığorta hadisəsinə görə vəsaitin verilməsi bürokratik əngəllərlə yubadılır, çox vaxt istehsalçı bezib sığorta pulundan imtina edir.

Ona görə də yeni sığorta mexanizminin tətbiqi gündəmə gəlib. Bu məsələ ilə bağlı «Kənd təsərrüfatında sığortanın dövlət dəstəyi vasitəsilə stimullaşdırılması haqqında» qanun layihəsi hazırlanıb və bu sahədə Avropa ölkələrinin və Türkiyənin təcrübəsi öyrənilir. Yeni sığorta mexanizminə əsasən, mərkəzləşdirilmiş sığorta fondunun - «Kəndsığorta»nın yaradılması nəzərdə tutulur.

***- Kənd təsərrüfatı ilə məşğul olan sahibkarların maliyyə problemlərinin həlli ilə bağlı ayrıca mərkəzləşdirilmiş ixtisaslı bankın yaradılması təklif olunurdu. Bu təklifin reallaşması nə dərəcədə mümkündür?***

- Hazırda Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Nazirliyi yanında Kredit Agentliyi mülkiyyətçilərə güzəştli kreditlər verir. Amma kommersiya bankları onlara kredit vermək istəmir. Kəndlinin torpaqdan başqa elə bir qiymətli əmlakı yoxdur, banklar isə onu girov kimi qəbul etmək istəmir. Ona görə də kommersiya xarakterli maliyyələşmə ilə bağlı mexanizm tapılmalıdır. Bununla əlaqədar Zəmanət Fondunun yaradılması nəzərdə tutlur. Fond torpağı girov kimi qəbul edəcək, fermer krediti qaytara bilmədikdə torpağa sahib olacaq. Bank məsələsinə gəlincə, bu, müsbət addım olardı. Hazırda kənd təsərrüfatı mülkiyyətçiləri üçün qeyri-bank təkşilatı olan «Aqrarkredit» fəaliyyət göstərir. Onun bazasında ixtisaslaşmış bank yaratmaq mümkün ola bilər.

**Elbrus CƏFƏRLİ**



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

# Gəlir vergisi modelləri

Fiziki şəxslərin gəlir vergisinə cəlb olunması prosesində fundamental problem müxtəlif gəlir mənbələrindən əldə olunmuş gəlirlərdən verginin necə tutulması ilə bağlıdır. Beynəlxalq təcrübədə bu məqsədlə üç tip yanaşmadan istifadə olunur:

- Şedulyar (Britaniya modeli);
- Qlobal (Almaniya modeli);
- Dualistik (Fransa modeli).

Şedulyar vergi modelində fərdin müxtəlif mənbələrdən əldə etdiyi gəlirlərin vergisi hər bir mənbədən əldə etdiyi gəlirə münasibətdə ayrıca hesablanır, yəni şedulyar model hər kateqoriya gəlirini ayrı-ayrı vergiyə cəlb edir. Bu modelin əsas üç üstünlüyü fərqləndirilir:

- gəlirlər alındığı mənbədə vergiyə cəlb edilir ki, bu halda vergidən yayınma imkanı aradan qaldırılır;
- verginin toplanması ilə bağlı inzibati xərclər minimuma endirilir;
- vergiyə cəlb etmənin diferensiasiyası tətbiq edilir ki, bu halda da müxtəlif mənbələrdən gəlir əldə edən fərdin daha az vergi ödəməsinə gətirib çıxarır. Axırıncı halla bağlı xüsusi qeyd etmək lazımdır ki, demək olar ki, bütün ölkələrdə gəlir vergisinin gəlirin məbləğindən asılı olaraq müxtəlif dərəcələri tətbiq edilir və məcmu gəlirin məbləği böyük olduğundan, adətən, yüksək vergi dərəcəsinə uyğun gəlir ki, bu da fərdin daha yüksək məbləğdə vergi ödəməsi ilə nəticələnir.

Birbaşa (müstəqim) vergilərin arasında əsas vergi növü gəlir vergisidir. Bu vergi növü birbaşa vergilərdən daxilolmaların 2/3-ni təşkil edir. Misal üçün, Böyük Britaniyada gəlir vergisinin qurulmasının şedulyar forması işləyir, hansı ki, gəlir mənbəyindən asılı olaraq (məvacib, dividendlər, renta və s.) gəlirin hissələrə (şedula) bölünməsini nəzərdə tutur. Altı şeduladan hər birinə xüsusi qaydada vergi qoyulur:

A) əmlak vergisi: torpaq, tikili mülkiyyəti, yaşayış binalarının kirayə verilməsindən əldə edilən icarə haqqı;

B) kommersiya məqsədilə istifadə edilən meşə massivlərindən alınan gəlir;

C) dövlət qiymətli kağızlarından gəlirlər, hansılar üzrə faizlər ödənilir;

D) istehsal-kommersiya fəaliyyətindən mənfəət (ticarətdə, sənayedə, kənd təsərrüfatında, nəqliyyatda); azad peşələr fərdlərinin gəlirləri; C şeduları üzrə vergi qoyulmayan qiymətli kağızların gəlirləri; istiqrazlar üzrə faiz şəklində əldə edilən və Böyük Britaniyaya köçürülən gəlirlər;

## *Azərbaycanda isə gəlirlər müxtəlif proporsional vergi dərəcələrinə uyğun üç şedula görə fərqlənir*

E) əmək gəlirləri: əməkhaqqı, təqaüdlər, müavinətlər;

F) dividendlər və şirkətlərin digər bölüşdürülən gəlirləri.

Rusiyada gəlirlər müxtəlif proporsional vergi dərəcələrinə uyğun dörd şedula görə fərqlənir:

- Divident şəklində gəlirlər - 9%;
- Əməkhaqqı gəlirləri - 13%;
- Qeyri-rezidentlərin gəlirləri - 30%;
- Uduşlar və mükafatlar şəklində olan gəlirlər, banklara qoyulan depozitlərdən faiz gəlirləri, borc vəsaitinin alınması zamanı maddi xeyirlər - 35%.

Azərbaycanda isə gəlirlər müxtəlif proporsional vergi dərəcələrinə uyğun üç şedula görə fərqlənir:

- Muzdlu işlə əlaqədar əldə edilən gəlir - 2500 manatadək 14%, 2500 manatdan çox olduqda 350 manat + 2500 manatdan çox olan məbləğin 25%-i;
- Muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir.

Qeyri-sahibkarlıq fəaliyyəti üzrə illik gəlirdən aşağıdakı dərəcələrlə vergi tutulur: 30000 manatadək - 14%, 30000 manatdan çox olduqda - 4200 manat + 30000 manatdan çox olan məbləğin 25%-i, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən 20% dərəcə ilə vergi tutulur, xüsusi notarius üçün bu Vergi Məcəlləsinin 96.1-ci maddəsinin ikinci bəndi ilə müəyyən edilmiş vergitutma obyektindən 10% dərəcə ilə vergi tutulur. Vergilərdən azad edilən gəlirlərdən və əsas vəsaitlərin (vəsaitin) yenidən qiymətləndirilməsindən yaranan artımdan başqa bütün digər gəlirlər.

# «Vergi dostları» şəbəkəsi genişlənir

Oktyabrın 23-də Quba, Qusar, Xaçmaz rayonlarından vergi sahəsində məlumatlandırma, maarifləndirmə və təbliğat işlərini gücləndirmək, vətəndaşlarda yüksək vergi mədəniyyətini formalaşdırmaq və bu sahəyə ictimaiyyətin geniş təbəqələrini cəlb etmək məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyinin dəstəyi ilə seçilmiş ümumtəhsil məktəblərinin müəllimlərinə «vergi dostu» sertifikatı və kompüterlər təqdim edilmişdir.

Bu münasibətlə təşkil edilmiş görüş zamanı nazirlik tərəfindən ərazi vergilər idarələrinin və vergi ödəyicilərinə xidmət mərkəzlərinin yerləşdiyi şəhər və rayon mərkəzləri istisna olmaqla, kənar kənd və qəsəbələrdə «Vergi dostları» şəbəkəsinin yaradılması barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, indiyədək respublika üzrə 756 nəfər müəllimə müvafiq təlim keçilmiş və «vergi dostu» sertifikatı təqdim olunmuşdur.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

### Əmlakın siyahıya alınması

**Yaranmış vergi borcumla əlaqədar mülkiyyətimdə olan siyahıya alınmış əmlakın satışından əldə olunmuş məbləğ hansı qaydada istifadə olunur?**

Vergi Məcəlləsinin (bundan sonra - Məcəllə) 89.1-ci maddəsinə əsasən, vergi ödəyicisi vergi öhdəliyini Məcəllə ilə müəyyən edilmiş müddətdə yerinə yetirmədikdə yaranmış vergi borcalarının, habelə həmin öhdəliyin yerinə yetirilməməsi ilə əlaqədar vergi borcu üzrə hesablanmış faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi onun əmlakı siyahıya alına bilər.

77.1-ci maddəyə görə, vergi ödəyicisinin Məcəllədə göstərilən hallarda və qaydada müəyyən edilən vergini (o cümlədən cari vergi ödəmələrini) ödəmək vəzifəsi onun vergi öhdəliyi hesab olunur.

90.1-ci maddədə qeyd olunub ki, vergi ödəyicisinin əmlakı siyahıya alındıqdan sonra 30 gün müddətində vergi öhdəliyi yerinə yetirilmədikdə vergi orqanı vergi öhdəliyinin icrasının təmin olunması məqsədi ilə siyahıya alınmış əmlakın zəruri və kifayət olan həcmdə ixtisaslaşdırılmış açıq hərracda satılması barədə məhkəməyə müraciət edə bilər. Əmlakın hərracda satışı - məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında əmlakın, ona dair heç bir şərt qoyulmadan satışıdır. Bu zaman ən yüksək qiymət təklif etmiş alıcı həmin əmlak üzərində mülkiyyət hüququnu əldə edir.

Əmlakın satılmasından əldə edilən məbləğlər əvvəlcə tənbeh tədbirinin yönəldilməsi və əmlakın satışı üzrə xərclərin, sonra isə hesablanmış vergilərin, faizlərin və maliyyə sanksiyalarının ödənilməsinə yönəldilir. Vəsaitin qalan hissəsi vergi ödəyicisinin yeni borcu yaranmadıqda üç bank günü ərzində vergi ödəyicisinə qaytarılır.

Əmlakın satışından daxil olan pul vəsaiti vergilər, faizlər və maliyyə sanksiyaları üzrə dövlət büdcəsinə yaranmış borcların ödənilməsi üçün kifayət etmədikdə və ya əmlak qanunvericilikdə nəzərdə tutulmuş qaydada hərracda satılmadıqda borcların dövlət büdcəsinə ödənilməsini təmin etmək məqsədilə icra məmuru tərəfindən vergi ödəyicisinin həmin borclarının qalan məbləği həcmində digər əmlakı qanunvericilikdə nəzərdə tutulmuş qaydada siyahıya alına bilər.

# Səyyar sosial xidmət

*Ölkə vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması istiqamətində hökumət tərəfindən vətəndaşlara göstərilən diqqət və qayğı xüsusi təbəqədən olan insanların həyatında da aydın hiss olunur. 2013-cü ilin əvvəllərindən Nazirlər Kabineti tərəfindən təsdiq edilən «Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası»nda da bu təbəqədən olan insanların həyat şəraitinin yaxşılaşdırılması əsas məqsəd kimi götürülüb.*

***14 minə yaxın insana xidmət göstərilib***

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) mətbuat xidmətindən verilən məlumata görə, nazirliyin rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzlərinin sosial işçiləri tərəfindən hazırda 13.082 nəfər tənha ahıl və əlil vətəndaş evlərində sosial-məişət xidməti ilə təmin edilir. Xidmətlə təmin olunanların 10 min 852-si yaşı 70-dən yuxarı olanlardır. Evlərində xidmət göstərilənlərin 8155 nəfəri şəhər və qəsəbələrdə, qalanları isə kənd yerlərində yaşayırlar. Şəhər və şəhər tipli qəsəbələrdə, rayon mərkəzlərində 1 nəfər sosial işçi 12 nəfərə, kənd yerlərində isə 8 nəfərə xidmət göstərir.

***Səyyar sosial xidmət üçün müraciət***

Qaydaya əsasən, bu xidmətin göstərilməsi üçün əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllar, ahıl ər-arvadlar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar, xəstəliyin terminal mərhələsində olan şəxslər evdə sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin şəhər, rayon əhalisinin sosial müdafiəsi mərkəzlərinə ərizə ilə müraciət etməlidirlər. Sosial xidmət göstərilməsi üçün ailənin yetkinlik yaşına çatmış üzvlərindən biri və ya şəxsin maraqları çərçivəsində onun valideynləri, digər qanuni nümayəndəsi, bələdiyyələr, qeyri-hökumət təşkilatları, habelə həmin şəxsin razılığı ilə digər şəxslər sosial xidmət göstərilməsi üçün müraciət edə bilərlər.

Evdə sosial xidmət, xarakterindən asılı olaraq, sosial işçi və sosial xidmətçi tərəfindən göstərilir. Sosial işçi tərəfindən sosial xidmətə ehtiyacı olan şəxsə tibbi və psixoloji yardım və hüquqi məsləhət almaqda kömək göstərilir. O, qəyyumluq və himayəçilik sənədlərinin hazırlanmasına, tənha ahılların və əlillərin internat evinə, sağlamlıq imkanları məhdud uşaqlara müvafiq xüsusi təhsil müəssisələrinə göndərilməsi üçün lazımi sənədlərin toplanmasına kömək edir, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara reabilitasiya xidməti göstərir, sağlamlıq imkanları məhdud uşaqların gündəlik həyatda lazım olan vərdiş və bacarıqlarını inkişaf etdirir.

Sosial xidmətçi tərəfindən göstərilən xidmətlərə isə yemək hazırlanmasına kömək etmək, özünə qulluq edə bilməyən xəstələri yedizdirmək və qabları yumaq, şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım etmək, yataq dəstlərini dəyişdirmək, yataq və geyim əşyalarını yumaq və ütüləmək, yataq və geyim əşyalarını camaşırxanaya, kimyəvi təmizləmə məntəqəsinə aparıb-gətirmək, paltarların xırda təmirini etmək, mənzili yığışdırmaq və təmizləmək, zəruri ərzaq, sənaye və məişət mallarını almaq, mənzil pulunun və digər kommunal xərclərin ödənilməsini təşkil etmək, istiliyə, yanacağa, təmirə olan ehtiyacların ödənilməsi məqsədi ilə aidiyyəti təşkilatlarla əlaqə saxlamaq, həyətyanı sahəni nizama salmaq, evə həkim çağırmaq, həkimin təyinatı ilə aptekdən dərman almaq, həkim müayinəsinə aparıb-gətirmək, sosial xidmətə götürülmüş vətəndaş vəfat etdikdə, dəfni ilə bağlı məsələlərin həllinə köməklik göstərmək aiddir.

***Səyyar sosial xidmətin dayandırılması***

Evdə sosial xidmət ödənişsiz, qismən ödənişli və tam ödənişli əsaslarla göstərilir. Çətin həyat şəraitində olan şəxslərə evlərdə sosial xidmət zəmanət verilmiş həcmdə ödənişsiz göstərilir. Qismən ödənişli və tam ödənişli sosial xidmət tərəflər arasında bağlanmış sosial xidmət müqaviləsi əsasında həyata keçirilir. Sosial xidmətə ehtiyacı olan şəxs əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamağa başladıqda, tənha ahıllar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar dövlət sosial xidmət müəssisələrinə yerləşdirildikdə, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası başa çatdıqda, sosial xidmətə ehtiyacı olan şəxs vəfat etdikdə sosial xidmətin göstərilməsi dayandırılır.

**AYTƏN**

# Özəl vergi məsləhəti

İlk baxışdan burada gördüklərimiz vergi ödəyicilərinə xidmət mərkəzlərinin iş fəaliyyətini xatırladırdı. Növbəsini gözləyən vergi ödəyicilərinin bəyannamələrin doldurulması üçün tələskənlikləri, bəyannamənin tərtib edilməsindən yaranan narahatlıqlar, əmək müqavilələri bildirişlərinin göndərilməsi, vergi borcunun, yaxud maliyyə sanksiyasının hansı səbəbdən tətbiqinin öyrənilməsinə dair bitib-tükənməyən suallar, vergi məsələləri ilə bağlı digər məsələlərə cavab axtarılması... Ara-sıra otağın divarlarına yapışdırılmış vergi elanları, bəyannamələrin doldurulması qaydaları və vergi təqviminə diqqət yetirən sahibkarların öz xırda kitabçalarında qeydlər götürdükləri də nəzərdən qaçmırdı.

***Açıq qapı...***

Qarşılaşdığımız mənzərə iki dar otaqdan ibarət ofisdə baş verir və vergi ödəyicilərini mülki geyimdə qarşılayıb növbə ilə qəbul edən, söhbət aparan bu məkanın işçiləri nə vergi idarəsinin, nə də xidmət mərkəzinin əməkdaşlarıdır. Bəs bütünlüklə iş fəaliyyəti vergi məsələlərindən ibarət olan bu işçilər hansı təşkilatın nümayəndələridir? Vaxt tapıb kompüterin arxasından bizə tərəf yönələn təxminən 50 yaşında bir şəxs ödəyici olduğumuzu zənn edib müraciətimizin səbəbini öyrənməyə çalışır. Qəzetdən gəldiyimizi biləndə işindən ayrılıb söhbətə razılaşır.

Həmsöhbətim Aslan Şirinov uzun illər vergi sahəsində çalışıb. Ötən il özəl vergi xidmətini yaratmaq qərarına gəlib və Bakı Şəhər Vergilər Departamentinə müraciət edib. Onun bu təklifinə müsbət yanaşılıb. 2014-cü ilin əvvəllərində «Vergi məsləhətçiləri» MMC-ni təsis edib, qurumun texniki işlərini, sənədləşdirmə məsələlərini yoluna qoyub. Mart ayından isə Yasamal rayonu ərazisində yerləşən qurum fəaliyyətə başlayıb. Müsahibim neçə ildir vergi sistemində çalışmasa da, bu sahədə son illərdə tətbiq olunan yeniliklər, müasir İK texnologiyaları, elektron xidmətlər haqqında ətraflı bilgilər əldə edib. Vergi sistemindəki müasir texnologiyaların tətbiqinin praktiki yollarını öyrənib. MMC-də çalışan iki nəfər işçinin müasir e-mühasibat işlərini yaxşı mənimsəməsində onun rolu az olmayıb.

A.Şirinov deyir ki, bura Padamdar, Səbail, Binəqədi, Yasamal rayonlarından sahibkarlar gəlir. Ay ərzində müəssisəyə 200-dən çox sahibkar müraciət edir ki, onların da əksəriyyəti sadələşdirilmiş vergi ödəyiciləridir.

Özəl vergi məsləhəti üzrə fəaliyyət göstərən digər qurum - «İntellektual» Hüquq Mərkəzinin əməkdaşı İlqar İsayevin sözlərinə görə, onlara gün ərzində 30-dan çox ödəyici müraciət edir. Dörd ildir ki, fəaliyyət göstərən mərkəz sahibkarların vergilərlə bağlı üzləşdiyi problemlərin həllində, vergilərin düzgün hesablanmasında vasitəçi və yardımçı olur. Həmsöhbətim bildirir ki, əsas məqsəd vergi orqanı ilə ödəyicilər arasında körpü rolunu oynamaqdır: «Bəzən sahibkarlar vergiləri düzgün hesablamaqda çətinlik çəkir, bəyannamələri səhv tərtib edir, vergi ödəmələri ilə bağlı texniki tələbləri yerinə yetirə bilmir və nəticədə maliyyə sanksiyaları ilə üzləşirlər. Bütün bunların əsas səbəbi onların vergilərin ödənişi ilə bağlı hələ də yetərincə iqtisadi və hüquqi biliklərinin olmamasıdır. Biz bu sahədə onlara kömək edir, mühasibat işlərinin aparılması, bəyannamələrin doldurulması və təqdim edilməsi, vergi qanunvericiliyinə riayət edilməsi və digər məsələlərdə yardım göstəririk. Bura müraciət edənlərin 90%-i sadələşdirilmiş vergi ödəyiciləridir. Bəzi hallarda məsləhət üçün ƏDV ödəyicilərindən də müraciət edənlər olur. Onlara daim elektron vergi poçtlarını yoxlamaq və vergi orqanı tərəfindən göndərilmiş məlumatların düzgünlüyünü müəyyən etməkdə də yardım göstəririk».

***Özəl vergi məsləhətçiləri kimdir?***

«İntellektual» Hüquq Mərkəzinin əməkdaşı Akif Osmanov hesab edir ki, vergi məsləhətçisi yüksək səviyyəli hüquqi-iqtisadi biliklərə malik olan və xüsusi hazırlıq keçən mütəxəssis olmalıdır. Bu şəxsin vergiyə aid bütün məsələlər - səyev vaxt azlığına görə bura gəlməyə üstünlük verdiyini deyir. Bildirir ki, bəyannaməni doldura bilər, amma yanlışlıq baş verməsindən ehtiyat edərək vergi məsləhətçisinə güvənir. Bir neçə dəfə özü tərtib etsə də sonradan hansısa rəqəmlərdə səhvə yol verib və maliyyə sanksiyası ilə üzləşib. Ondan sonra mühasibat işlərini bu idarə ilə həll edir. Kiçik sahibkar, xırdavat malların satışı ilə məşğul olan Aqil Cavadov da işin çoxluğuna görə bəyannamələri özəl xidmət vasitəsilə tərtib etməyə məcbur olduğunu deyir.

Digər bir vergi ödəyicisi Firudin Səmədov isə vergi bəyannamələrinin doldurulmasının çətin olduğunu bildirir. Deyir ki, elektron vergi bəyannamələrinin, ümumiyyətlə sənədləşmə işlərinin təkmilləşdirilməsinə, sadələşdirilməsinə ehtiyac var. «Asan imza» ilə bağlı müraciət edən Şəfaqət Qəhrəmanova da bu fikirdədir. Xanım sahibkar elektron imza əldə etməsinə baxmayaraq, öz hesab nömrəsi üzrə bəyannamələri göndərə bilmədiyini, bu işin sadələşdirilməsini arzu edir.

***Vergi ödəyicilərinin məsuliyyəti artıb***

Ödəyicilərin özəl vergi xidməti göstərən mərkəzlərə müraciətlərinin artması, əslində, onların məsuliyyətini, vergi bəyannamələrinin, elektron bildirişləri və digər mühasibat sənədlərini təqdim etməkdə nizam-intizamlı olduqlarını göstəricisidir. Həmsöhbətim Akif Osmanov da bu fikirdədir. Akif müəllim deyir ki, vergi orqanlarının apardığı maarifləndirmə və təbliğat işləri öz müsbət bəhrəsini verir: sahibkarlarda məsuliyyət hissi artıb, onlar vergiləri ödəməklə yanaşı, kargüzarlıq məsələlərinə də diqqətlə yanaşırlar: «Artıq ödəyicilərdə bir vərdiş yaranıb, vergi idarələrinə getməyə imkan tapa bilməyənlər bura müraciət edərək elektron ünvanlarına hansısa bir müraciət, məktub göndərilib-göndərilməməsi ilə maraqlanırlar. Bu onu göstərir ki, ödəyicilər vergiyə aid ən kiçik bir məsələyə belə həssas yanaşırlar, intizamlı olmağa çalışırlar».

***Özəl vergi xidməti hansı qanun əsasında fəaliyyət göstərir?***

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi siyasəti idarəsinin rəisi Şamil Ərəbovun sözlərinə görə, hazırda respublikamızda özəl vergi məsləhəti xidməti heç bir qanunvericilik aktı ilə tənzimlənməsə də, qanunvericilik müxtəlif fiziki və hüquqi şəxslərin vətəndaşlara iqtisadi və hüquqi biliklərin verilməsi, bu istiqamətdə sənədləşmələrin həyata keçirilməsi və s. işlərə icazə verir. Yəni bu cür qurumların fəaliyyəti qanunla qadağan olunmur: «Onların fəaliyyəti tək vergi məsələləri ilə bağlı deyil, bu şirkətlər maliyyə, sosial, gömrük, sığorta və digər iqtisadi sahələr üzrə vətəndaşlara hüquqi yardım göstərir, hesabat və digər sənədlərinin müvafiq orqanlara təqdim olunmasına kömək edir. Bəyannamələrin tərtib edilməsi və göndərilməsi, vergiyə aid müxtəlif sənədlərin hazırlanmasında iştirak edirlər.

Bu qurumları hələlik vergi məsləhətçisi adlandırmaq hüquqi baxımdan düzgün deyil. Çünki onların məsləhətçi statusuna malik olması mövcud qanunvericilikdə heç bir normativ-hüquqi aktda təsbit edilməyib. Amma niyyətləri xoş olduğundan və vergi ödəyicilərinə kömək göstərdiklərindən fəaliyyətləri də qadağan olunmur.

Məsələ bundadır ki, bəzən vergi məsləhəti xidməti göstərən şəxslər tərəfindən tərtib olunan vergi bəyannamələri səhvlərlə, uyğunsuzluqlarla müşayiət olunur, bu isə son nəticədə vergi ödəyicisinə əlavə



nədlərin tərtib edilməsi, ödəyicinin maraqlarının təmsil olunması, ödəyicinin işinin aparılması, cari vergilərin ödənilməsinin əlverişli yolları, vergi planlaşdırılması, məsləhət, vergi ekspertizası və digər sahələr üzrə dərin hüquqi-iqtisadi bilikləri, peşəkar təcrübəsi olmalıdır. O, vergi sistemində daim yenilikləri izləməli, tətbiq olunan texnologiyaların mahiyyətini başa düşməlidir.

***Ödəyicilər həm razıdır, həm də...***

Müşahidələrimiz göstərdi ki, bu mərkəzlərə üz tutan insanların ən çox müraciət etdiyi məsələlər obyektin və NKA-ların uçota alınması, hesab açılması, bəyannamələrin tərtib edilməsi və göndərilməsi, vergi orqanından daxil olan məktubun məğzi barədə ətraflı məlumat əldə edilməsi ilə bağlıdır. Hətta Dövlət Sosial Müdafiə Fonduna təqdim olunan bəyannamələri göndərmək üçün də bura gələnlər az deyil.

Maraqlıdır ki, vergi bəyannamələrini tərtib etməyi bacaran da, bacarmayan da bura üz tutmağa üstünlük verir. Məsələn, sahibkar Rəhim Mustafavəsaitlərin, faizlərin hesablanmasına səbəb olur. Bu zaman ödəyicilərin iradları, yaxud onları müdafiə edən həmin «məsləhətçilərin» irəli sürdüyü arqumentlər əsaslı hesab olunmur».

Ş.Ərəbovun sözlərinə görə, Vergilər Nazirliyi vergi ödəyicilərinin vergi məsələləri ilə bağlı mübahisə doğuracaq halların, bəyannamələrin tərtibi zamanı səhvlərin, vergi pozuntularına dair məsələlərin araşdırılmasında həmin «məsləhətçilər»in verdiyi tövsiyə, yaxud arqumentləri nəzərə almır.

Bu sahədə yaranan sistemsizliyi, mübahisələri aradan qaldırmaq üçün onların fəaliyyətini tənzimləyən qanuna ehtiyac var. Bu ehtiyac nəzərə alınaraq, Vergilər Nazirliyi tərəfindən bu cür qurumların və şəxslərin seçilməsi və fəaliyyətinin tənzimlənməsi üçün «Özəl vergi məsləhəti xidməti haqqında» qanun layihəsi hazırlanıb. Sənəd vergi ödəyicisinə müqavilə əsasında xidmət göstərən şəxslərin hüquq və vəzifələrini, göstərdiyi xidmətin keyfiyyətinə və nəticəsinə görə məsuliyyətini müəyyən edəcək.

**Elbrus CƏFƏRLİ**

# Qlobal Forumun 7-ci iclası keçirilib

*Almanyanın Berlin şəhərində keçirilmiş seminar vergi sahəsində şəffaflıq və məlumat mübadiləsinə həsr olunub. Seminarda 101 dövlətdən 300-dən çox nümayəndə, 14 beynəlxalq təşkilat və regional qrup iştirak edib.*

İclas zamanı avtomatik informasiya mübadiləsində yeni standartların 2017 və ya 2018-ci ilin sonuna qədər tətbiq edilməsi, informasiya mübadiləsi mühitinin inkişafına təsir göstərmək məqsədilə real mülkiyyət barədə məlumatları əks etdirmək, inkişaf etməkdə olan ölkələrin avtomatlaşdırılmış informasiya mübadiləsində iştirakına şərait yaratmaq və Afrika təşəbbüsünə dəstək məsələləri müzakirə olunub.

Avtomatlaşdırılmış informasiya mübadiləsində yeni standartların həyata keçirilməsi sahəsində görülən işlərin nəticəsinə uyğun olaraq, Qlobal Forumun səlahiyyəti növbəti 5 ilədək uzadılıb. Forumun növbəti iclasının 2015-ci ilin oktyabr ayında keçiriləcəyi planlaşdırılıb.

İclasda ölkəmizi Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər, vergi ödəyicilərinə xidmət və tədris sahələri üzrə nazirin müşaviri Ələkbər Məmmədov təmsil edib.

# Daşınmaz əmlakın vahid e-informasiya sistemi yaradılır

*Əmlak Məsələləri Dövlət Komitəsi (ƏMDK) tərəfindən 2014-cü ilin 9 ayı ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair geniş müşavirə keçirilib.*

Müşavirədə vurğulanıb ki, ötən il yaradılmış elektron xidmətlər portalında hazırda vətəndaşlara 29 elektron xidmət təqdim olunur. E-xidmətlərin hamısı «Elektron hökumət» portalına inteqrasiya edilib. Bu xidmətlər sayəsində artıq dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı hərraclarda iştirak üçün sifarişlər elektron qaydada qəbul edilir. Bundan başqa, dövlət əmlakının qorunub saxlanması, idarə edilməsi və istifadə vəziyyəti ilə bağlı hesabatlar, dövlət əmlakının icarəsi üzrə xidmət haqqı, daşınmaz əmlaka dair çıxarışlar, ipoteka, lizinq əməliyyatlarının qeydiyyatı və ləğvi, daşınmaz əmlakın dövlət reyestrindən məlumatların verilməsinə dair e-xidmətlər də fəaliyyət göstərir. 2012-ci ildən 2014-cü il oktyabrın 1-dək hüquqi və fiziki şəxslər tərəfindən komitənin qurumlarına 107 min 300-dən çox elektron müraciət daxil olub.

Bu ilin mart ayından daşınmaz əmlakın qeydiyyatı sahəsində onlayn xidmətlərin də tətbiqinə başlanılıb. Daşınmaz əmlaka dair yüklülük arayışlarının (Forma-1) notariuslara real vaxt rejimində - onlayn verilməsi həyata keçirilir. Eyni zamanda, daşınmaz əmlak obyekti barədə daşınmaz əmlakın dövlət reyestrindən məlumatların internet vasitəsilə verilməsi xidməti də istifadəyə verilib. Bu xidmət vasitəsilə vətəndaşlar daşınmaz əmlakın yüklü, girovda və ya həbsdə olması və digər reyestr məlumatlarını onlayn əldə edirlər.

Hazırda daşınmaz əmlakların vahid elektron informasiya sisteminin yaradılması üzərində iş aparılır. Bu sistemin işə düşməsilə bütün dövlət qurumları və müvafiq təşkilatlar daşınmaz əmlaklar barədə zəruri informasiyaları çevik, dəqiq və rahat əldə edə biləcəklər.

Daşınmaz əmlakın qeydiyyatı sahəsində vətəndaşlara göstərilən xidmətlərdə rahatlığın artırılması məqsədilə bu ilin aprelindən etibarən daşınmaz əmlakın qeydiyyatı ilə bağlı mobil ofis xidmətləri istifadəyə verildiyini deyən komitə sədri bildirib ki, mobil ofislər vasitəsilə qeydiyyat xidmətləri xüsusi təbəqədən olan insanların ünvanına çatdırılır. Daxil olan müraciətlər əsasında indiyədək Bakı və regionlarda mobil ofislər vasitəsilə 10 minə yaxın vətəndaşa qeydiyyat xidmətləri göstərilib.

Müşavirədə qeyd edilib ki, 2014-cü ilin 9 ayı ərzində kiçik özəlləşdirmə formasında 580-dən çox müəssisə və obyekt, 450-dən çox obyektin yerləşdiyi torpaq sahəsi özəlləşdirilib, 380-dən çox qeyri-yaşayış sahəsi və 310-dan çox torpaq sahəsi hüquqi və fiziki şəxslərə icarəyə verilib, 150 min 950-dən çox daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınıb. Hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 116 mindən çox yüklülük arayışı, əhaliyə xidmətlə bağlı 14 min 550-dən çox digər müxtəlif məzmunlu arayışlar verilib, 33 min 300-dən çox ipoteka müqaviləsi qeydə alınıb. Bu müddət ərzində 130 min 200-dən çox daşınmaz əmlaka dair texniki inventarlaşdırılma və çöl-ölçmə işləri aparılıb və texniki sənədlər tərtib edilib.

*2012-ci ildən 2014-cü il oktyabrın 1-dək hüquqi və fiziki şəxslər tərəfindən ƏMDK-nın qurumlarına 107 min 300-dən çox elektron müraciət daxil olub*

ƏMDK daşınmaz əmlakın vahid kadastrı və ünvan reyestri sahəsində işləri davam etdirib. Hazırda Bakı şəhərinin Yasamal, Nəsimi, Nərimanov, eləcə də Səbail və Xəzər rayonlarında kadastr işlərinin icrası artıq yekunlaşdırılıb. Respublikanın 53 şəhər və rayonu üzrə sadə modelli elektron kadastr məlumat bazasının yaradılması (100 min hektar) işlərinin icrası yekunlaşmaq üzrədir.

Ölkənin şəhər və rayonları üzrə daşınmaz əmlak obyektlərinə ünvanların yeni qaydalar əsasında verilməsi işləri də davam etdirilib. Ümumilikdə, ilin ilk üç rübündə Bakı şəhəri üzrə 1325, Sumqayıt şəhəri üzrə 80, Gəncə şəhəri üzrə 684, Mingəçevir şəhəri üzrə 23 və Şirvan şəhəri üzrə 35 küçə və prospektlərin daşınmaz əmlak obyektlərinə yeni qaydalara uyğun giriş və daxili ünvanları təyin edilib.

**AYTƏN**

## vergi təqvimi

| NOYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 noyabr - «5», «(5)» və «6».
20 noyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«5» - Əmlak vergisi:** Fiziki şəxslər illik əmlak vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlət büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

**«6» - Torpaq vergisi:** Torpaq vergisi üzrə hesabat dövrü təqvim ilidir. İllik torpaq vergisinin qalan hissəsini noyabr ayının 15-dən gec olmayaraq hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyanname verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.




# Borclu vergi ödəyiciləri

*Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin I bəndinə əsasən, qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur.*

*Əksər vergi ödəyiciləri vergilərini müəyyən olunmuş müddətlərdə, müxtəlif səbəblərdən yaranmış vergi borclarını isə mümkün qədər tez ödəməyə çalışsalar da, bəziləri qanunvericiliyin tələblərini pozaraq onların dövlət büdcəsinə vaxtında ödənilməsini təmin etmirlər ki, bu da büdcəyə vergi daxilolmalarına mənfi təsir göstərir. Belə halların aradan qaldırılması üçün Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsi tərəfindən aparılan mütəmadi təhlillər əsasında, imkanı olmasına baxmayaraq, vergi borcunu ödəməkdən yayınan vergi ödəyicilərinə qarşı digər qanunamüvafiq tədbirlər görülməklə yanaşı, onların siyahısı həftədə bir dəfə «Vergilər» qəzetində dərc edilir və artan yekunla nazirliyin rəsmi veb-saytında yerləşdirilir. Borcunu ödəyən vergi ödəyicisinin adı siyahıdan çıxarılır.*

*Adlarının ictimaiyyətə açıqlanmasını və bundan irəli gələ biləcək ciddi problemlərlə üzləşmək istəməyən vergi ödəyiciləri dövlət büdcəsinə borclarının ləğv olunmasını təmin etməlidirlər.*

| S/N | Vergi orqanı | Vergi ödəyicisinin adı | Vergi ödəyicisinin qeydiyyatda olduğu rayon | Obyektin adı |
|---|---|---|---|---|
| 1 | BŞVD | "SU-İSTİLİK QURAŞDIRMA" firması | Bakı şəhəri Yasamal rayonu | Ofis və anbar |
| 2 | BŞVD | "MİNKƏND" MMC | Bakı şəhəri Qaradağ rayonu | Daş karxanası |
| 3 | BŞVD | "NFT" MMC | Bakı şəhəri Qaradağ rayonu | Daş karxanası |
| 4 | BŞVD | "AYGÜN İNŞAAT" MMC | Bakı şəhəri Yasamal rayonu | Ofis |
| 5 | BŞVD | "Xətai TİKİNTİ MEXANİZASİYA" ASC | Bakı şəhəri Xətai rayonu | Ofis |
| 6 | BŞVD | "MÜSTƏQİL PEYK" FİRMASI | Bakı şəhəri Nizami rayonu | Avtoservis və kafe |
| 7 | BŞVD | "AVİA -EKOLOGİYA" MMC | Bakı şəhəri Nizami rayonu | Kərpic zavodu |
| 8 | BŞVD | TALIBOV VÜSAL ŞİRİN OĞLU | Bakı şəhəri Yasamal rayonu | Ərzaq mağazası |
| 9 | BŞVD | "TURAL-12" kiçik müəssisəsi | Bakı şəhəri Yasamal rayonu | Ofis |
| 10 | BŞVD | "MURAD" kiçik müəssisəsi | Bakı şəhəri Sabunçu rayonu | İcarə obyekti |
| 11 | BŞVD | "YANAR-DAĞ" QTSC | Bakı şəhəri Binəqədi rayonu | "Vüsal" kafesi |
| 12 | BŞVD | ABBASOV AZƏR MÜZƏFFƏR OĞLU | Bakı şəhəri Xətai rayonu | Mobil telefon və aksessuarların satışı mağazası |
| 13 | BŞVD | "EXPERT ARCHİTECT DESİGN" MMC | Bakı şəhəri Yasamal rayonu | Ofis |
| 14 | BŞVD | "AZQUR-İNTER M" MMC | Bakı şəhəri Səbail rayonu | Ofis |
| 15 | BŞVD | "QARADAĞ SƏNAYE LAYİHƏ" ASC | Bakı şəhəri Qaradağ rayonu | Ofis |
| 16 | BŞVD | KAFAFI ALIREZA XXX | Bakı şəhəri Xətai rayonu | Ərzaq mağazası |
| 17 | BŞVD | QASIMOVA KƏMALƏ AĞƏLİ QIZI | Bakı şəhəri Nizami rayonu | Ərzaq mağazası |
| 18 | 2 ƏVD | "QRANİT-MFT" MMC | Abşeron rayonu | Karxana |
| 19 | 2 ƏVD | "DOSTLAR İNŞAAT" MMC | Abşeron rayonu | Ofis |
| 20 | 2 ƏVD | "LEYLA-R" MMC | Sumqayıt şəhəri | Polietilen örtük istehsalı |
| 21 | 5 ƏVİ | "MİRİ GRAND" MMC | Saatlı rayonu | Şirə zavodu |
| 22 | 5 ƏVİ | MAHMUDOV BABƏK BALAĞA OĞLU | Neftçala rayonu | Tikinti materialları mağazası |
| 23 | 6 ƏVİ | CƏBRAYILOVA YASƏMƏN ƏKBƏR QIZI | Cəlilabad rayonu | Şirniyyat sexi |
| 24 | 8 ƏVİ | "KONSERV MƏHSULLARI İSTEHSALI" FİRMASI | İmişli rayonu | Anbar |
| 25 | 11 ƏVD | MİNGƏÇEVİR DƏMİR-BETON MƏMULATLARI FİLİALI | Mingəçevir şəhəri | Dəmir-beton məmulatları istehsalı sexi |
| 26 | 11 ƏVD | YEVLAX RAYON İSTEHSAL İSTEHLAK KOOPERATİVİ | Yevlax rayonu | Qeyri-yaşayış sahəsi |
| 27 | 11 ƏVD | NAĞIYEV İLHAM VƏLYƏDDİN OĞLU | Yevlax rayonu | Maye qazdoldurma məntəqəsi |
| 28 | 13 ƏVİ | ABBASOV ADİL İSRAYİL OĞLU | Qax rayonu | Mağaza |
| 29 | 14 ƏVİ | TOVUZ RAYON KOOPERATİV CƏMİYYƏTLƏRİ İTTİFAQI | Tovuz rayonu | İcarə obyekti |
| 30 | 14 ƏVİ | "AĞSTAFA SƏNAYE KOMBİNATI" ASC | Ağstafa rayonu | Qum-çınqıl karxanası |

# Sosial media və mobil ünsiyyət vasitələri müzakirə olunub

***Çexiya Respublikasının paytaxtı Praqa şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) təşkilatçılığı ilə «Vergi administrasiyaları tərəfindən sosial media və mobil ünsiyyət vasitələrindən istifadə» mövzusunda seminar keçirilmişdir.***

Ölkəmiz də daxil olmaqla 35 ölkənin nümayəndəsinin iştirak etdiyi seminarda vergi administrasiyalarının sosial şəbəkələrdəki fəaliyyəti, istifadə etdikləri mobil yükləmələr, tətbiq etdikləri yeniliklər və gələcəkdə nəzərdə tutduqları layihələr haqqında təqdimatlar edilmişdir. İştirakçı ölkələrin nümayəndələri virtual aləmdə göstərilən xidmətlər, onların təhlili qaydaları və reqlamentləri mövzularına da toxunmuşlar.

Vergi ödəyicilərinə innovativ xidmət kanallarından olan mobil yükləmələr ətrafında da müzakirə aparılmışdır. Mobil yükləmələr vasitəsilə vergi ödəyicilərinə göstərilən müxtəlif xidmətlərdən «Digicash» mobil ödənişlər sisteminə xüsusi diqqət ayrılmışdır. 2012-ci ildən tətbiq olunan bu sistem ilk vaxtlar «QR-kod»lar vasitəsilə fəaliyyət göstərirdi, 2014-cü ildən onun daha da təkmilləşdirilməsi nağdsız ödənişlərin artmasına şərait yaratdı.

İştirakçılar bu sahədə Azərbaycan təcrübəsini maraqla qarşılaşmışlar. Xüsusilə də Vergilər Nazirliyinin «Face vizit» və «Onlayn müfəttiş» layihələri daha böyük marağa səbəb olmuşdur. Seminarda Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin əməkdaşı Zaur Quliyev iştirak etmişdir.

# Əsas vəsaitlərin (torpaq, tikili və avadanlıqların) satışı ilə bağlı uçot qeydləri

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarının tələblərinə əsasən verilən yeni hesablar planında əsas vəsaitlərin (torpaq, tikili və avadanlıqların) ilkin dəyəri 111№-li «torpaq, tikili və avadanlıqlar - dəyər» hesabında, yığılmış amortizasiya 112№-li «torpaq, tikili və avadanlıqlar - amortizasiya» hesabında uçota alınır. Hüquqi şəxsin torpaq, tikili və avadanlıqlarla bağlı siyasətindən asılı olaraq, həmin əmlakın satışı barədə daxili qaydalar (uçot siyasəti) müəyyənləşdirilə bilər. Məsələn, uzunmüddətli aktiv faydalı istismar müddəti başa çatdıqdan sonra onun barəsində satış qərarı verilir. Yaxud da faydalı istismar müddəti başa çatmamış uzunmüddətli aktivin satışı qərarı verilə bilər. Hər iki halda uzunmüddətli aktiv barədə satış qərarı verilir və bu anda aktivin 111№-li və 112№-li hesablar üzrə müvafiq olaraq ilkin və yığılmış amortizasiya qalıqları mövcud olmalıdır. Məsələ ondadır ki, bu aktivlərlə bağlı satış qərarı verildikdən sonra həmin aktiv öz «uzunmüddətlilik» xarakterini itirir, çünki onun qısa müddətdə satılması zərurəti yaranıb. Deməli, satılması barədə qərar verilən anadək uzunmüddətli aktiv hesab edilən hər hansı əsas vəsait satılmaq üçün nəzərdə tutulan aktiv hesab edildiyi andan qısamüddətli maddi aktiv (əşya) statusu alır. Bu halda həmin aktiv satılanadək (müəssisədən xaric edilənədək) qısamüddətli aktiv kimi tanınması təmin olunmalıdır. Bunun üçün əsas vəsait restavrasiya olunaraq uçotda əsas vəsaitləri (uzunmüddətli aktivləri) uçota alan hesablardan çıxarılıb qısamüddətli maddi aktivləri uçota alan (ehtiyat) hesablarda qeydiyyatı təmin olunmalıdır. Bəzən elə ola bilər ki, əsas vəsait istismarı saxlanılaraq istismar yerindən birbaşa müştəriyə təqdim olunsun. Belə halda həmin əsas vəsaiti satılmaq üçün nəzərdə tutulan qısamüddətli aktiv hesabda uçota almadan da əsas vəsait hesabından xaric etmək olar.

Məsələn, satışı barədə qərar qəbul edilən zaman ilkin dəyəri 2500 manat, yığılmış amortizasiya dəyəri 1800 manata bərabər olan əsas vəsait (uzunmüddətli maddi aktiv) bazarda 1000 manata satılmışdır. Bu əməliyyatlara aşağıdakı kimi ikili yazılışlar verilə bilər:

**1-ci tövsiyə**

*Maddi aktivin yığılmış amortizasiya dəyəri silinir:* DT 112 - KT 111 = 1800 manat;
*Maddi aktiv qalıq dəyəri ilə ehtiyat kimi uçota alınır:* DT 206 - KT 111 = 700 manat;
*Maddi aktivin satışından gəlir:* DT 211 - KT 611 = 1000 manat;
*Ehtiyat kimi uçota alınmış maddi aktivin dəyəri silinir:* DT 731 - KT 206 = 700 manat;
*Gəlir hesabı bağlanır:* DT 611 - KT 801 = 1000 manat;
*Xərc hesabı bağlanır:* DT 801 - KT 731 = 700 manat;
*Mənfəət uçota alınır:* DT 801 - KT 341 = 300 manat.

**2-ci tövsiyə**

*Maddi aktivin yığılmış amortizasiya dəyəri silinir:* DT 112 - KT 111 = 1800 manat;
*Maddi aktivin qalıq dəyəri silinir:* DT 731 - KT 111 = 700 manat;
*Maddi aktivin satışından gəlir:* DT 211 - KT 611 = 1000 manat;
*Gəlir hesabı bağlanır:* DT 611 - KT 801 = 1000 manat;
Xərc hesabı bağlanır: DT 801 - KT 731 = 700 manat;
*Mənfəət uçota alınır:* DT 801 - KT 341 = 300 manat.

Əsas vəsait restavrasiya olunaraq uçotda əsas vəsaitləri (uzunmüddətli aktivləri) uçota alan hesablardan çıxarılıb qısamüddətli maddi aktivləri uçota alan (ehtiyat) hesablarda uçota alındıqdan müəyyən müddət sonra satıldıqda 1-ci tövsiyə olunan ikili yazılışları, əsas vəsait istismarı saxlanılaraq istismar yerindən bir başa satıldığı halda isə 2-ci tövsiyə olunan ikili yazılışları vermək məsləhət görülür.

beynəlxalq panoram

# «Burger King» vergiləri minimallaşdırmaq üçün ABŞ-ı tərk edir

*ABŞ-ın «Burger King» şirkəti Kanadanın «Tim Hortons» qida şəbəkəsi ilə birləşməklə bağlı danışıqlar aparır. Razılaşma əldə edilsə, yeni şirkətin qərargahı Kanadaya köcürüləcək. Buna səbəb «Burger King»in daha az vergi ödəmək niyyətində olmasıdır.*



Bu, fast-fud yemək şəbəkələri sırasında «McDonald's» və «KFC»dən sonra dünyada üçüncü ən böyük şirkət olacaq. Yeni şirkət qəhvə və ponçiklərin istehsalı üzrə Kanadada birinci yeri tutacaq. Hazırda bu seqmentdə liderlik «Tim Hortons» şirkətinə məxsusdur.

Konsorsium bütövlükdə dünyanın 100 ölkəsində fast-fud yemək xidmətləri üzrə 18 mindən çox restorana malik olacaq. Yeni şirkətin səhmlərinin əksəriyyəti Braziliyanın «3G Capital» investisiya fonduna məxsus olacaq. Bu fond 2010-cu ildə «Burger King» şirkətini satın almışdı. İnvestisiya fondu həmçinin «H.J.Heinz» adlı ketçupların və sousların istehsalçısının da səhmlərinə sahibdir.

Qeyd edək ki, mənfəət vergisinin dərəcəsi ABŞ-da 35%, Kanadada 26,5% təşkil edir. ABŞ prezidenti Barak Obama vergilərdən yayınmaq məqsədilə digər ölkələrə üz tutan şirkətləri kəskin tənqid edərək bu tendensiyanın qarşısını alacağına söz verib. Buna baxmayaraq, təkcə 2014-cü ilin yay aylarında ölkənin beş böyük şirkəti ABŞ-ı tərk etmək barədə qərar verib. Onların sırasında «AbbVie Inc» əczaçılıq və «Medtronic» tibbi avadanlıq istehsalçısı kimi məhşur şirkətlər də var.

# Böyük Britaniyada vergitutmanın sərtləşdirilməsi gündəmdədir

*Birləşmiş Krallığın sənaye sektorunda ən böyük şirkətlərdən olan «Tata Group» hökuməti xəbərdar edib ki, biznes üçün müəyyənləşdirilmiş vergi dərəcələri investorlar üçün ölkənin sənaye sahəsinin cəlbediciliyini azaldır.*

Transmilli holdinq olan «Tata Group» və ABŞ-ın avtomobil nəhəngi «General Motors» birgə bəyanatla çıxış edərək Böyük Britaniyada vergi dərəcələrinin digər Avropa ölkələrində olan analoji tariflərə nisbətən 5-10 dəfə yüksək olmasını bəyan ediblər.

Hər iki şirkət metallurgiya və maşınqayırma zavodları üçün idxal edilən yeni avadanlıqların vergiyə cəlb olunmasına etiraz ediblər. Onlar hesab edirlər ki, digər sahələrdə, məsələn, İT sektorunda avadanlıqlar belə yığımlardan azaddır: «İstehsalçıların böyük əksəriyyəti istehsal güclərinin yenilənməsi üçün daim investisiya qoymalı olurlar. Lakin bu investisiyalar yenidən qiymətləndirməyə məruz qalır ki, bu da daha yüksək vergi dərəcələrinə gətirib çıxarır».

İyulda «Tata Steel» («Tata Group»-a daxildir) Uelsin cənubunda yerləşən Port Talbor zavodunda 400 iş yerini ixtisara salmışdı. Buna səbəb sərt vergitutma, yüksək enerji qiymətləri və ekoloji xərclərin artması olub. 2014-cü ilin martında yekunlaşan maliyyə ilində şirkətin zərəri 16 mln. funt sterlinq təşkil edib, halbuki ötən il bu rəqəm 283 mln. funt idi. «Tata Steel» hər il Böyük Britaniya xəzinəsinə 22 mlrd. funt vergi ödəyir.

# Avstriyanın maliyyə naziri vergi islahatlarına görə istefaya gedib

*Vitse-kansler, federal maliyyə naziri və Avstriya Xalq Partiyasının lideri Mixail Şpindeleqqer istefaya getməsi barədə qərarını elan edib. Buna səbəb onunla iqtidardakı koalisiya üzrə tərəfdaşları (Avstriyanın sosial-demokrat partiyası) arasında vergi islahatlarına dair məsələlərdə yaranmış fikir ayrılığı və tərəflərin güzəştə getməmək mövqeyidir.*

2013-cü ildə seçilmiş yeni Avstriya hökuməti əhali üçün vergi yükünü azaltmağa söz vermişdi. Lakin dövlət maliyyə xərclərinin azaldılması nəticəsində ölkənin müdafiə qabiliyyəti zəifləyib, silahlı qüvvələrdə planlaşdırılmış islahatlar təxirə salınıb.

M.Şpindeleqqer hesab edir ki, indi vergi sisteminin sabitləşməsi yalnız yeni vergilərin tətbiqi halında mümkündür. Maliyyə naziri kansler Verner Faymanın yüksək gəlirlərə malik vergi ödəyiciləri üçün vergilərin artımı, aztəminatlı əhali üçün isə azaldılması ilə bağlı planını dəstəkləməyib. Onun sözlərinə görə, hökumət vergiləri aşağı salmaqdansa, öz diqqətini daha çox ÜDM-in 80%-nə çatmaqda olan dövlət borcunun azaldılması üzərində cəmləşdirməlidir.

Xarici ölkələrin təcrübəsi

# Fransa Respublikasının vergi sistemi: fiziki şəxslərin gəlir vergisi

Rezident fiziki şəxslər bütün dünya üzrə gəlirlərindən, qeyri-rezident fiziki şəxslər isə yalnız Fransa mənbəyindən gəlirlərindən gəlir vergisi ödəyirlər. Ailəli cütlüklərin hər birinin gəlirləri üzrə ayrılıqda deyil, ümumi ailənin gəlir vergisi bəyannaməsi təqdim edilir. Ayrıca bəyannamə yalnız istisna hallarda təqdim edilə bilər. Ümumi ailə bəyannaməsində ər və arvadın hər birinin gəlirləri və 18 yaşadək uşaqların (tələbələr üçün 25 yaşadək) gəlirləri əhatə olunur.

Əsas yaşayış məskəni, iş yeri, peşə fəaliyyəti ilə bağlı işi (əgər bu fəaliyyət yardımçı xarakter daşımırsa) Fransada olan və ya iqtisadi mənafelərinin mərkəzi Fransa olan şəxslər rezident şəxslər hesab olunur. Xaricdə Fransa dövlətinin xidmətində olan dövlət qulluqçuları əgər öz gəlirləri barədə olduqları ölkədə bəyannamə təqdim etmirlərsə, rezident hesab olunurlar. Monakoda yaşayan Fransa vətəndaşları Fransa rezidenti hesab olunurlar, lakin 13 oktyabr 1962-ci ilədək Monako rezidenti olan və ya 5 ildən artıq Monako rezidenti olanlar istisna edilir.

Ortaqlıqlar mənfəət vergisi ödəyicisi deyilsə, hər bir ortağın gəlirləri bölüşdürülməsindən asılı olmayaraq, ortaqlıqdakı payına uyğun vergiyə cəlb olunur.

***Vergiyə cəlb olunan gəlirlər.*** Fransa vergi qanunvericiliyinə əsasən, əvvəlki ildə əldə olunmuş gəlirlər üzrə bəyannamə cari ildə təqdim edilir. Ayrıca vergi tutulan gəlir anlayışı olmasa da, vergi ödəyicisinin hər bir növ üzrə əldə etdiyi gəlirlərinin cəmi ümumi vergiyə cəlb olunan gəlir hesab edilir. Gəlir növləri aşağıdakılardır:

- muzdlu işdən gəlir - əməkhaqqı, komissiyalar, muzdlu işlə əlaqədar güzəştlər, natural gəlirlər;
- sahibkarlıq gəliri - sənaye, kommersiya, sənətkarlıq fəaliyyətindən, sahibkarlıq fəaliyyəti məqsədləri üçün istifadə olunan daşınmaz əmlakın alqı-satqısı və icarəsindən gəlirlər;
- daşınmaz əmlak üzrə gəlir;
- kənd təsərrüfatından gəlir;
- peşə gəlirləri (azad peşə fəaliyyəti, «qeyri-kommersiya» fəaliyyəti olan hüquq və tibb xidmətləri və s. növlərə aid edilməyən fəaliyyətlərdən gəlirlər);
- ailə şirkətləri və ya ortaqlıqların idarə olunmasından gəlirlər;
- investisiya gəlirləri (dividend, faiz gəlirləri, daşınan əmlakdan gəlirlər);
- kapital gəlirləri (sahibkarlıq aktivləri, daşınmaz əmlak, qiymətli kağızların satışından gəlir).

***Vergidən azad olunan gəlirlər.*** Fransada bir sıra şərtlər daxilində bu gəlir növləri vergidən azaddır:

- 01 sentyabr 2012-ci ildən əvvəl ödənilmiş gündəlik iş saatından artıq işləməyə görə ödənişlər;
- iş yerlərinin məhdudlaşdırılması ilə əlaqədar işçinin işdən çıxarılmasına görə ödənilən kompensasiya və təqaüdə çıxmaqla əlaqədar ödənilən birdəfəlik ödənişlər;
- 25 yaşadək tələbələrin aylıq minimum əməkhaqqının 3 misli həcmində muzdlu işdən gəlirləri;
- benefisiarın yaşından asılı olaraq həyat sığortası əsasında əldə etdiyi annuitetlər;
- kapital gəlirlərinin bəzi növləri;
- 8610 avrodan artıq olmayan illik gəlir (65 yaşdan yuxarı şəxslər üçün illik 9410 avro).

***Vergi dərəcələri:*** Fransa Respublikası sosial dövlət olduğundan, vergi ödəyicisinin ailə vəziyyəti ilə əlaqədar vergi dərəcələri də çox mürəkkəb və fərqli hesablanır. Vergi ödəyicisinin məcmu gəliri onun bütün gəlir növləri üzrə əldə etdiyi gəlirlərindən çıxılmalar və güzəştlər tətbiq edildikdən sonra yaranan fərq hesab olunur. Vergi ödəyicisinin xalis gəliri sonradan vergi ödəyicisinin ailə vəziyyəti və himayəsində olanların sayından asılı olaraq xüsusi əmsala bölünür. Vergi dərəcələri cədvəli əmsala bölünmüş hissələrə tətbiq edilir. Hər bir hissəyə tətbiq edilmiş vergi dərəcəsi üzrə hesablanmış vergi sonradan yenidən əmsala vurularaq məcmu vergi öhdəliyi hesablanır.

**Misal:**

Evli vergi ödəyicisi 30.000 avro gəlir əldə etmiş və onun himayəsində 2 uşaq varsa, onun gəliri 3 əmsalına bölünür. Alınan 10.000 avroluq 3 hissənin hər birinə 5,5% dərəcə tətbiq edilir. Beləliklə, vergi ödəyicisinin cəmi ödəməli olduğu vergi (10.000 - 5963) x 5,5% x 3 = 222,035x3 = 666,1 avrodur *(bax: Əmsallar cədvəli)*.

Fransada mövcud olan ailə əmsal sistemi himayədə olanların sayına uyğun olaraq vergi tutulan gəlirin məbləğinin azaldılmasına xidmət edir. Lakin vergi güzəşti müəyyən həddən artıq olmamalıdır *(bax: Vergi dərəcəsi cədvəli)*.

Yuxarı gəlirlərdən əlavə vergi. 2011-ci vergi ilindən illik gəlir məbləğinin həcmindən asılı olaraq əlavə vergi hesablanır. İllik 250.000 avrodan artıq gəliri olan şəxslər 3%, 500.000 avrodan artıq gəliri olan şəxslər 4% həcmində əlavə vergi ödəyirlər. Bu vergi tutulması büdcə kəsiri aradan qalxanadək davam edəcək.

**Əmsallar cədvəli**

| Status | Əmsal (hissələrin sayı) |
|---|---|
| Himayəsində heç bir şəxs olmayan subay, boşanmış və ya dul şəxslər | 1 |
| Himayəsində 18 yaşdan yuxarı bir uşaq, əlil və ya müharibə veteranı olan subay, boşanmış və ya dul şəxslər | 1,5 |
| Uşaqsız evli şəxslər və ya himayəsində bir uşaq olan subay, boşanmış şəxslər | 2 |
| Himayəsində bir uşaq olan evli və ya boşanmış şəxslər, himayəsində iki uşaq olan subay və ya boşanmış şəxslər | 2,5 |
| Himayəsində iki uşaq olan evli və ya dul şəxslər | 3 |
| Himayəsində 3 uşaq olan subay və ya boşanmış şəxslər | 3,5 |
| Himayəsində 3 uşaq olan evli və ya dul şəxslər | 4 |
| Himayəsində 4 uşaq olan subay və ya boşanmış şəxslər | 4,5 |
| Himayəsində 4 uşaq olan evli və ya dul şəxslər | 5 |
| Himayəsində 5 uşaq olan subay və ya boşanmış şəxslər | 5,5 |
| Himayəsində 5 uşaq olan evli və ya dul şəxslər | 6 |
| Himayəsində 6 uşaq olan subay və ya boşanmış şəxslər | 6,6 |

**Vergi dərəcəsi cədvəli**

| Hər bir hissəsi üçün avro ilə | Dərəcə |
|---|---|
| 5963-dək | 0% |
| 5963 - 11.896 | 5,5% |
| 11.896 - 26.420 | 14% |
| 26.420 - 70.830 | 30% |
| 70.830 - 150.000 | 41% |
| 150.000-dən artıq | 45% |

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:**

1.Rusiyada şəhər; 2.Müəyyən işin gedişinə, icrasına nəzarət etməli olan şəxs, təşkilat; 3.İncə məqam; 4.Sirkə turşusunun duz və efirləri; 5.İsveçrə mətbəxinin Fransa və İtaliyada geniş yayılmış xörəyi; 6.Şairin hiss və həyəcanlarını şeir şəklində ifadə edən ədəbi növ; 9.Sakit okeanın qərbində dəniz; 13.Elektron sənəd qovluğu; 15.Kisəlilər infrasinfindən məməli heyvan; 16.Yunanıstanda mövcud olmuş qədim dövlət; 17.Orqanizmdə əsəb sistemlərinin normal vəziyyətdən kənara çıxması; 18.Beyin qabığının ümumi üzgünlüklə müşayiət olunan atrofiyası və psixi fəaliyyətinin dayanması; 20.Ölkəmizdə peşəkar futbol klubu; 21.İcazəsiz və gizli qaçış.

**Soldan sağa:**

1.Buxaq qırxılmaqla üzdə saxlanan saqqal və yarımsaqqal; 5.Ümumi qrammatik mənasına görə iş, hal və hərəkəti bildirib zaman, şəxs və kəmiyyətcə təsriflənən əsas nitq hissəsi; 7.Şimali Afrikada əsası Finikiyanın Tir şəhərindən gəlmiş kolonistlər tərəfindən qoyulmuş qədim dövlət; 8.Azərbaycan yazıçısı, ssenarist, şair, tərcüməçi; 10.Bolqarıstanda şəhər; 11.Türkiyənin ilk prezidenti, görkəmli dövlət xadimi, milli lider; 12.Müxtəlif ölçü və biçimdə olan mətbəə hurufatı; 14.Bağ, park və xiyabanlarda dekorativ və s. məqsədlə ot əkilmiş meydança; 19.Ukraynada kabus-şəhər; 21.Azərbaycanın məşhur estrada müğənnisinin adı; 22.Müntəzəmlik; 23.ABŞ-da ştat; 24.Sahə ölçü vahidi (4046,86 kv.m.); 25.Riyazi proqramlaşdırmanın ümumi məsələsi, müəyyən şərtlər daxilində hər hansı funksiyanın maksimum («max») və ya minimum («min») qiymətinin təyini məsələsinə deyilir.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Qrifon; 2.Antanta; 3.Maraq; 4.Fleyta; 5.Mehdi *(Hüseynzadə)*; 6.Hörmət; 9.Urna; 13.Klip; 15.Lümbaqo; 16.Balans; 17.Tanker; 18.Fleqma; 20.«Almaz»; 21.Tiara - Cənubi Amerikada çay.

**Soldan sağa:** 1.Qrammofon; 5.Meh; 7.İnteryer; 8.Əhər; 10.Oynaq; 11.Türkiyə; 12.Bankə; 14.Layla; 19.Amaliya *(Pənahova)*; 21.Tamil; 22.Alma; 23.Akvalanq; 24.«Söz»; 25.Barkarola.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14200

## idman

# Velosipedçilərimiz daha bir mötəbər turnirdə...

*Azərbaycanın ilk peşəkar kontinental velosiped komandası «Synergy Baku» Çində keçirilən daha bir çoxgünlük yarışda mübarizə aparır. Sayca 5-ci dəfə təşkil olunan «Tour of Taihu Lake» yürüşündə 17 kontinental və 3 milli komanda iştirak edir. 9 mərhələdən ibarət olan yarış Beynəlxalq Velosipedçilər İttifaqının 2.1 kateqoriyasına malikdir.*



Noyabrın 3-də keçirilən 3-cü mərhələdə iştirakçılar 135.4 km məsafə qət ediblər. Velosipedçilərimizin hamısı - Maksim Averin, Aleksandr Surutkoviç, İsmayıl İlyasov, Samir Cəbrayılov, Elçin Əsədov və Ənvər Asanov finiş xəttini liderlə eyni vaxtda keçən pelotonun içərisində olublar - 3 saat 4 dəqiqə 49 saniyə. 3 mərhələdən sonra ümumi sıralanmada ilk 20-likdə komandamızın 3 üzvü yer alır: Samir Cəbrayılov 11-ci, Aleksandr Surutkoviç 13-cü, Maksim Averin isə 18-cidir.

Noyabrın 4-də keçirilən 4-cü mərhələdə iştirakçılar 129.7 km məsafə qət ediblər. Velosipedçilərimizdən ən yüksək nəticəyə Maksim Averin imza atıb - o, finişi mərhələ qalibi ilə eyni vaxtda keçib və fotofinişə əsasən 5-ci olub - 2 saat 41 dəqiqə 50 saniyə. Digər təmsilçilərimiz - Aleksandr Surutkoviç, Samir Cəbrayılov, Elçin Əsədov, İsmayıl İlyasov və Ənvər Asanov da mərhələni ilk pelotonda başa vurublar.

4 mərhələdən sonra ümumi sıralanmada ilk 20-likdə komandamızın 3 üzvü yer alır: Samir Cəbrayılov 11-ci, Aleksandr Surutkoviç 14-cü, Maksim Averin isə 17-cidir.

Yürüşün 23 yaşadək velosipedçiləri arasında liderdən cəmi 15 saniyə geri qalan Samir Cəbrayılov ilk üçlüyü tamamlayır. İsmayıl İlyasov 8-ci, Ənvər Asanov 13-cü pillədə qərarlaşıb. Komanda hesabında «Synergy Baku» 2-ci yerdəki mövqeyini qoruyur.

# Cüdoçularımızın uğurlu çıxışı

**Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilən cüdo üzrə «Böyük dəbilqə» turnirində Azərbaycan millisi dörd medal qazanıb.**

Üç gün davam edən yarışda baş məşqçi Hacıağa Hacıəliyevin rəhbərliyi ilə milli komandamızın üzvləri Orxan Səfərov (60 kq) qızıl, Tərlan Kərimov (66 kq) gümüş, İlqar Müşkiyev (60 kq) və Rüstəm Orucov (73 kq) isə bürünc medallara sahib olublar.

Qeyd edək ki, «Böyük dəbilqə» turnirində 65 ölkədən 401 idmançı mübarizə aparıb.

# «Baku World Challenge» avtomobil yarışları başa çatdı

*Azərbaycanda keçirilən «Blancpain Sprint» seriyasından «Baku World Challenge» avtomobil yarışlarının qalibi Belçikanın «Audi Club Team WRT» komandası olub. Komandaya bu uğuru pilotlar Sezar Ramos və Laurens Vanthur qazandırıblar.*



Böyük Britaniyanın «Beechdean AMR» komandası (pilotlar Conni Adam, Endi Soucek) ikinci, Almaniyanın «Phoenix Racing» kollektivi isə (Niki Mayr-Melnhof və Markus Vinkelhick) üçüncü yerə çıxıb.

Yarışda 15 beynəlxalq komanda 30 avtomobillə mübarizə aparıb. Avtoralli Xəzər dənizi boyunca uzanan və Dövlət Bayrağı Meydanının ətrafında dövrə yaradan, yeni təmir olunan 4 kilometrlik dairə üzrə keçirilib. Pilotlar yarışda «BMW Z4», «Audi R8LMS Ultra», «Mercedes SLS AMG GT3», «McLaren MP4-12C», «Lamborghini LFII», «Porsche 997 GT3», «Aston Martin Vantage GT3» və «Corvette Z06 G» avtomobillərini idarə ediblər.

Yarış başa çatdıqdan sonra «Formula-1» və drift maşınlarının nümunəvi çıxışı təqdim olunub. Çıxış paytaxt sakinləri tərəfindən yüksək coşğu ilə qarşılaınb.

Qalib komanda 100 min avro qazanıb. İkinci yerin sahibinə 50 min, üçüncü pillədə qərarlaşan komandaya isə 25 min avro pul mükafatı təqdim edilib.

«Baku World Challenge» dünyanın 175-dək ölkəsinin televiziya kanalında canlı nümayiş olunub.

Xatırladaq ki, ötən il təşkil olunan yarışda da Belçikanın «Audi Club Team WRT» komandasının pilotu Laurens Vantur «Audi R8» avtomobili ilə qalib gəlmişdi.

# Döyüş ustalarımızın qələbəsi

**Universal döyüş üzrə Azərbaycan millisi İstanbulda başa çatan IV dünya festivalında 5 qızıl, 3 gümüş, 3 bürünc medal qazanıb. Komandamız ümumi hesabda birinci pillədə qərarlaşıb.**

Qarışıq döyüş növləri üzrə keçirilən festivalda Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənovun rəhbərliyi altında 11 idmançımız debüt edib. Komandanın heyətində böyüklərdən ibarət yığmamızın baş məşqçisi Elşən İsmayılov və iki hakim də yer alıb.

İdmançılarımızdan Orxan Qurbanov (70 kq) və Nicat Əliyev (75 kq) klassik versiyada bütün rəqiblərini üstələyərək çempion adını qazanıblar. Ülvi Teyyubzadə (60 kq), Muradxan Fərzəliyev (90 kq) və Tahir Məsimov (95 kq) layt versiyası üzrə yarışlarda qızıl medala sahib olublar.

Klassik versiya üzrə yarışlarda Murad Quliyev (60 kq), Orxan Binnətov (85 kq) və Qəzənfər Namazov (95 kq) gümüş, Elmar Piriyev (85 kq) və Sahib Əliyev (90 kq) isə bürünc medallara sahib çıxıblar. Komandamızın üzvü Əli Həsənli isə layt versiyasında bürünc medal qazanıb.

## mozaika

madaniyyat

# Bakıda beşinci Avropa filmləri festivalı

*Festival Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin, ittifaqa üzv dövlətlərin ölkəmizdə təmsil olunan səfirliklərinin və «Park Cinema»nın birgə təşkilatçılığı ilə reallaşır.*




«Park Cinema» kinoteatrlar şəbəkəsinin direktoru Namiq Quliyev bildirib ki, noyabrın 9-dək davam edəcək festivalda quruma üzv olan 20 ölkədən müasir filmlər nümayiş olunacaq. Filmlər təmsil etdikləri ölkənin dövlət dilində olmaqla, rus və ya ingilis dilində subtitrlə veriləcək. Əvvəlki festivallardan fərqli olaraq, bu dəfə Azərbaycan filmi də təqdim ediləcək. Festivalın sonuncu günündə, noyabrın 9-da Azərbaycanın «Oskar» mükafatına təqdim edilmiş «Nabat» filmi nümayiş olunacaq.

Filmlər gündə iki seans olmaqla «Park Bulvar»da yerləşən «Park Cinema»da təqdim edilir. Bütün filmlərə giriş pulsuzdur və bilet tələb olunmur.

Festival müddətində 5 mindən çox tamaşaçının film izləmək imkanı olacaq. Aİ-nin Azərbaycan nümayəndəliyinin rəhbəri xanım Malena Mard festivalın proqramına daxil olan filmlərin janr etibarilə müxtəlif olduğunu söyləyərək bildirib ki, komediya, dram, sənədli film, animasiya kimi janrları əhatə edən bu filmlər bütün növ kinosevərlər üçün nəzərdə tutulub. Təşkilatçılar uşaq və yeniyetmələri də unutmayıblar.

# Azərbaycan arxeologiyası İtaliyada müzakirə edilib

*Oktyabrın 30-da İtaliyanın Paestum şəhərində «XVII Arxeoloji turizm üzrə Aralıq dənizi yarmarkası» çərçivəsində Azərbaycanda arxeoloji tədqiqatlar və onların inteqrasiyasına həsr olunan konfrans keçirilib.*



Tədbirin moderatoru, «Romualdo Del Bianko» Fondunun prezidenti Paolo Del Bianko yarmarkanın hər il keçirilməsinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, tədbirin əsas məqsədi müxtəlif mədəniyyətlərin nümayəndələrini bir araya gətirərək mədəniyyətlərarası dialoqu təbliğ etməkdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimova bildirib ki, hər bir xalqın qədim tarixinin, etnogenezinin öyrənilməsində ən etibarlı mənbə məhz arxeoloji abidələrdir. Qədim Azərbaycan xalqının tarixinin öyrənilməsində arxeoloji abidələrin tədqiq olunması böyük əhəmiyyət kəsb edir. Ölkəmizdə aparılan geniş arxeoloji qazıntı işləri nəticəsində Azərbaycanın qədim tarixinə aid yüzlərlə abidələr və minlərlə maddi mədəniyyət nümunələri aşkar edilib.

Tədbirdə Azərbaycan Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanov «Azərbaycanın mətbəx ənənələri arxeoloji tədqiqatlarda», «Miras» Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin sədri Fariz Xəlili və Milan Politexnik İnstitutunun professoru Luici Skrinzi «Azərbaycanda arxeoloji turizm və onun inkişaf perspektivləri», Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Məlahət Fərəcova «Azərbaycanın arxeoloji irsi ümumdünya irsində» mövzularında məruzələrlə çıxış ediblər.

sağlam həyat tərzi

# Balqabağın faydaları

*Payız və qış fəsillərində balqabaqdan milli mətbəximizdə geniş istifadə olunur. Bununla belə, çoxumuz balqabaq və onun tumunun xeyirli xüsusiyyətlərini bilmirik. 90%-ni su təşkil edən balqabaq kalorisi az olan məhsul hesab olunur. Yüz qram məhsulun tərkibində 25 kalori var. Xiyar və qovuna yaxın olan balqabağı «dünyanın ən böyük giləmeyvəsi» hesab edirlər.*



Hal-hazırda dünyada təxminən 100 balqabaq cinsindən olan 850 müxtəlif balqabaq növü mövcuddur. Lakin bunların heç də hamısı yeməli olmur. Balqabaq qırmızı, yaşıl, mavi və ya qara, dəyirmi, oval və ya butulka formalı ola bilər. 50 qramdan tutmuş təxminən 900 kiloqrama qədər nəhəng balqabaqlara rast gəlmək olar. Narıncı Hokkaido sortu ən klassik və yaxşı balqabaq hesab edilir.

Balqabaq beta-karotenoid maddəsi ilə zəngindir. Toxumalara təbii rəng verən və hüceyrələri qoruyan bu maddə A vitamininin əmələ gəlməsində əvəzsiz rol oynayır.

Tərkibi bir çox vitaminlərlə zəngin olan şirin balqabaq kalsium, fosfor, dəmir, maqnezium, natrium, kalium kimi minerallarla zəngin olan bir tərəvəzdir. Alman alimləri araşdırmalarında qeyd edirlər ki, balqabaq tumları qəbizliyə yaxşı təsir etməklə yanaşı, iltihablar, sidik tutulması zamanı çox faydalıdır. Bundan əlavə, ürəkbulanmanı aradan qaldırır, mədə qurdlarını tökməyə təsir göstərir. Hissiyyat, sonsuzluq və ya hormonal balanssızlıq problemi olan insanlar üçün də balqabaq tumu faydalıdır. Elmi cəhətdən sübuta yetirilib ki, balqabaq tumu oynaqların iltihabı xəstəliyinin müalicəsində müsbət nəticələrə gətirib çıxarır.

Balqabaq tumundakı karotenoid və omeqa-3 yağları görmə qabiliyyətini gücləndirməklə yanaşı, insan hüceyrələrini cavan saxlayır, dərinin qocalmasının qarşısını alır, prostat xərçəngi riskini azaldır, ürək-damar sağlamlığına yaxşı təsir edir.

texnologtya

# Çinlilər dünyada ən nazik smartfon buraxmağa hazırlaşırlar




*Çinin böyük «BBK» şirkəti planetdə ən nazik smartfon istehsalına başladığını elan edib. Yeni modelin qalınlığı 3,8 millimetrdən çox olmayacaqdır.*

Beləliklə, «Vivo» smartfonu hazırda Yer kürəsində ən nazik qacetlərdən biri olan «iPhone 5s» smartfonundan 2 dəfə nazik olacaqdır. Bu yaxınlarda buraxılmış «iPhone 6» smartfonunun qalınlığı 6,9 millimetrdir.

Hazırda birincilik «Gionee» şirkətinin buraxdığı «Elife S5.1» smartfonundadır. Onun qalınlığı, adından göründüyü kimi, 5,1 millimetrdir ki, bu da «Ginnesin rekordlar kitabı»nda qeydə alınıb.

«Letnews» portalı yazır ki, Çinin yeni məhsulunun texniki xüsusiyyətləri hələlik bəyan edilmir, yalnız batareya ekspertlərdə şübhə doğurur.

## Müdriklər deyib ki...



***«Həqiqət, azadlıq və ləyaqət – bunların naminə həyatı sevməyə dəyər».***

***Volter (1694-1778)***